QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 153 (6353) 27 avqust 2021-ci il **Qiymәti 40 qәpik** “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




## İlham Əliyev: “Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi qürurla yaşayacağıq”

*Bax 2*



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər

## Mehriban xanım Əliyeva milyonlarla insanın dərin sevgisini, böyük rəğbətini qazanıb



Müstəqilliyinin 30-cu ildönümünü qeyd etməyə hazırlaşan Azərbaycan dövləti ardıcıl nailiyyətlər qazanaraq milli tərəqqi yolunda sürətlə...

*Bax 8*

## Gəncə rus icması: Bu şəhər həmişə tolerantlığı və müdrikliyi ilə məşhur olub!



Azərbaycanın 2-ci böyük şəhəri Gəncədə bir çox millətlərin nümayəndələri yaşayır. Onların arasında Gəncəni öz evi hesab edən və həyatını sevimli şəhəri olmadan...

*Bax 15*

## “Rusiyanın davranışlarında da ciddi dəyişikliklər var”

“Ermənistanın sərhəddə bu cür təxribatlara əl ataraq gərginlik yaratmasında məqsəd həm sülh müqaviləsindən qaçmaq, həm də sərhədlərin delimitasiyası ilə bağlı məsələləri həll etmək və Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliklərindən qaçmaqdır. Bir sözlə, Ermənistan...



*Bax 13*

## Diplom həsrətli valideynlər...



...Bu gün daha yaxşı yaşamaq üçün hansı daha çox önəm kəsb edir: universitet diplomu, yoxsa qaynaqçı şəhadətnaməsi? Əslində, “qonşudan qalma dala”...

*Bax 13*

## Yeni tədris ili başlayır - Məktəblərdə yeni qaydalar necə olacaq?



## Tələbə qəbulu qaydaları dəyişdi: Yeni qaydalar necə olacaq?



## Ermənilərin Xankəndidə növbəti təxribatı - Azərbaycan hansı addımı atacaq?




## Nikolu yıxmaq üçün kifayət qədər səbəb də var...



*Bax 15*

## Əli Kərimli şeytandan qabaq...



*Bax 14*

## ŞOK: Qazlı içkilər insan orqanizmində bu dəhşətli fəsadlara yol açır!



*Bax 16*

# İlham Əliyev: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi qürurla yaşayacağıq"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı mərasimdə çıxış edib.**

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

-Bu görüş şəhid ailələri, Qarabağ qaziləri ilə növbəti görüşümdür. Xahiş edirəm ki, görüşümüzün əvvəlində Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



## Prezident:

> Dağlıq Qarabağı Ermənistana birləşdirmək planına Heydər Əliyev faktoru mane olurdu

Son illər ərzində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə mənim çoxsaylı görüşlərim olub. Müharibədən əvvəl hər dəfə görüş əsnasında mən deyirdim ki, biz nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracağıq, Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, şəhidlərimizin qisasını alacağıq və belə də oldu. Azərbaycan ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, öz torpaqlarını qaytardı və şəhidlərimizin qanını aldı.



Bu gün müharibədən keçən aylar ərzində şəhid ailələri, Qarabağ qaziləri ilə görüşlər əsnasında tam başqa ab-hava hökm sürür. Əgər əvvəlki illərdə biz hər zaman şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq, bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdırdıq. Bu gün Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir. Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. Ancaq bununla yanaşı, əlbəttə ki, bu proses müəyyən müddət davam etdiriləcək.



Çünki yaxın gələcəkdə bu problem tamamilə aradan qaldırılacaq. Ancaq bununla paralel olaraq, İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün biz daha fəal olmalıyıq. Eyni zamanda, gənclərimizin tərbiyə işində də mütləq bu mövzu ön planda olmalıdır. Çünki İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir.

Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Bu gün açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, - harada ki, biz indi görüşürük, - uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir.

Onu da bildirməliyəm ki, bu sahədə Azərbaycan dünya miqyasında nümunəvi ölkə sayıla bilər. Çünki bir daha demək istəyirəm ki, bu günə qədər 10 minə yaxın vətəndaş mənzillərlə, fərdi evlərlə təmin edilib. Biz hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayırırıq ki, bu məsələlər öz həllini tapsın və növbəti müddət ərzində bu proqram tam icra olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq göstərişlər verilib, gələn ilin büdcəsi formalaşdıqda, əlbəttə ki, bu məsələ öz həllini tapacaq. Onu da bildirməliyəm ki, dünən imzaladığım Sərəncam əsasında İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək, müvafiq Sərəncam imzalanıbdır. Vətən Müharibəsi Qəhrəmanı adını alan bütün şəxslər mənzillərlə təmin ediləcək. Ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələri də bu mənzillərə sahib olacaqlar.

Eyni zamanda, müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilibdir. Orta hesabla hər insana 2 ödəniş edilib. Yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin edilir. Onlar üçün belə imkan yaradılıb və son nəsil protezlər alınıb. Mənə verilən məlumata görə, 180 nəfərdən çox insanın protezə ehtiyacı var, onlardan 140 nəfəri artıq protezlərlə təmin edilib və bu protezlər onları normal həyata qaytarır. Onlar normal gəzə, qaça, hətta futbol oynaya da bilərlər. Bu da siyasətimizin tərkib hissəsidir. Çünki mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik.

Eyni zamanda, müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilməkdədir. Çünki mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bunun əvəzini mülki vətəndaşlardan çıxmaq istəyirdi. Bizim bir çox şəhərlərimiz daim atəş altında idi, artilleriya ilə, qadağan edilmiş bombalarla, ağ fosforlu bombalarla, ballistik raketlərlə bombalanırdı. Yüzdən çox mülki şəxs, onların arasında qadınlar, uşaqlar bu namərd atəş nəticəsində həlak olmuşlar və minlərlə insan öz əmlakını itirmişdir. Ona görə bu gün bu işlər də görülür, minlərlə ev inşa edilir, onların böyük hissəsi artıq inşa edilib.

Ardı Səh. 3

# İlham Əliyev: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi qürurla yaşayacağıq"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər*



Əvvəli Səh. 2

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir və bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir, öz hesabına edir və edəcək. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur.

Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur.

## İlham Əliyev:

> "Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü"

Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər, sözün əsl mənasında, ölümə gedirdilər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir.





Ancaq, eyni zamanda, onu da bildirmək istəyirəm ki, şəhidlərin sayı daha çox ola bilərdi. Əgər biz əməliyyatları planlaşdıranda bu amili nəzərə almasaydıq. Ona görə Ermənistan ordusu ilə müqayisədə bizdə itkilər kifayət qədər azdır. Düzdür, Ermənistan öz itkilərini gizlədir. Ancaq bizdə olan dəqiq məlumata görə ən azı 7-8 min itki vermişdir. Təkcə azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılmışdır. Burada da Azərbaycan humanistlik göstərir. Birinci Qarabağ müharibəsindən sonra bizim təxminən 4 minə yaxın itkin düşmüş insanımız olmuşdur. Ermənilər onların nəşini bizə qaytarmadılar. Ancaq biz yenə də humanizmin ən ülvi əlamətlərini, prinsiplərini rəhbər tutaraq bu işi də görürük. Biz bütün əməliyyatları planlaşdıranda əməliyyatların gedişatını izləyirdik, canlı rejimdə izləyirdik. Biz bilirik ki, düşmən ən azı 7-8 min itki verib. Azərbaycan isə 3 minədək şəhid verib. Nəzərə alsaq ki, biz əks hücum əməliyyatı keçirirdik. Nəzərə alsaq ki, 5-6 müdafiə xətti var, böyük mühəndis istehkamları var idi, təbii relyef bizim üçün əlverişsiz idi. Anlamaq olar ki, biz insanların sağlamlığını, həyatda qalmasını nə qədər düşünürdük və buna nail olduq.



İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam Qələbə olmamışdır. Biz 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad etdik. İşğalçıları məcbur etdik ki, onlar kapitulyasiya aktını imzalayaraq digər rayonlardan öz xoşları ilə çıxsınlar. Halbuki müharibənin ilk günlərindən mən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix verməlidir nə vaxt bizim torpaqlarımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Noyabrın 9-da Ermənistan artıq kapitulyasiya aktını imzalamağa hazır olmuşdur. Ağdam, Kəlbəcər, Laçın rayonlarının bizə qaytarılması tarixi müəyyən olunmuşdur. Noyabrın 10-na keçən gecə isə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə dayandı. Müharibənin bizim tərəfimizdən dayandırılması da tamamilə əsaslı bir addım idi. Çünki müharibə davam etsəydi, birincisi biz daha çox itkilər verəcəkdik. Müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarının azad edilməsi müəyyən çətinliklərlə üzləşə bilərdi. Çünki o bölgənin təbii iqlimi, dağları bizə problem yarada bilərdi. Bir də ki, qış başlayırdı. Eyni zamanda, Azərbaycan müharibəni müharibə qanunları ilə aparırdı. Biz ermənilərdən fərqli olaraq hərbi cinayət törətməmişik, etnik təmizləmə siyasəti aparmamışıq. Bu, bir daha xalqımızın böyüklüyünü, siyasətimizin müdrikliyini göstərir. Ona görə biz hər şeyi vaxtında etdik, hər şeyi vaxtında. Torpaqlarımızı vaxtında azad etdik, müharibəni vaxtında dayandırdıq və tarixi Zəfərə çatdıq. Bir neçə gün bundan əvvəl dediyim kimi, ermənilərin bütün miflərini darmadağın etdik. Bu gün Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, öz sərhədlərini özü qoruya bilmir, öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz. Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir. Əgər vaxtında mənim sözlərimə əməl edib torpaqlarımızdan çıxsaydılar, belə bir rəzil vəziyyətə düşməzdilər. Nəticədə yenə də mənim sözlərimə əməl etməli oldular. Mən deyirdim ki, bizim torpağımızdan rədd olmalısınız. Rədd oldular. Nəticədə mən deyən oldu, amma vaxt itirdilər. Bu gün Ermənistan nə gündədir, hər kəs bunu görür. Əlbəttə, acı məğlubiyyətin şokunu onlar hələ uzun illər yaşayacaqlar.

Ardı Səh. 4

# İlham Əliyev: “Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi qürurla yaşayacağıq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər*

Əvvəli Səh. 3

Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq.

Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü. Çünki müharibəyə qədər işğal dövründə Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı. Eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də oraya getməyə o qədər can atmırdılar. Halbuki qanunsuz məskunlaşma hərbi cinayət sayılır. Əgər 1990-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən - Suriyadan, Livandan gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik buraya. Bura Ermənistan torpağıdır. Biz burada yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerlə-yeksan ediblər. Amma qalan yerlərdə - Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və Şuşada qanunsuz məskunlaşma gedirdi. Düzdür, az gedirdi, çünki onların insan resursları yox idi, amma gedirdi. Bu, hərbi cinayətdir. Bu hərbi cinayətə görə təkcə Ermənistan yox, o cinayətlərə göz yuman da məsuliyyət daşıyır. Bizim uğurlu əməliyyatlarımız buna son qoydu. Ancaq bu gün qeyd etdiyim kimi, bütün dünya erməni vəhşiliyini görür. Görür ki, ermənilər bizim məscidlərimizi dağıdıblar, 60-dan çox məscid dağıdılıb. Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir. Bir daha sizin qarşınızda bütün müsəlman ölkələrinin rəhbərlərinə üz tutaraq deyirəm, bunu heç vaxt unutmayın, buna göz yummayın, görməzliyə vurmayın. Ermənistan rəhbərliyi bütün müsəlman aləmini təhqir edib. Qəbirləri dağıdan da, qəbir daşlarının üzünü silərək satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir, məscidlərimizi sökən də ermənidir, evlərimizi kərpic-kərpic söküb öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir. Biz azad edilmiş torpaqlara xarici qonaqları, jurnalistləri, siyasətçiləri, ictimai xadimləri müntəzəm olaraq gətiririk ki, görsünlər və bilsinlər, biz təkcə öz ərazimizi işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik.



## İlham Əliyev:

> “Bu günə qədər şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülüb”







Bu gün biz bu əraziləri bərpa edərək tarixi ədaləti bərpa edirik. Əfsuslar olsun ki, xalqımız uzun illərdir ədalətsizliklərlə üzləşir. XX əsrin 20-ci illərində xalqımıza iki böyük zərbə vuruldu. Birincisi, 1920-ci ildə. O vaxt sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirdi. Ondan sonra o bölgədə azərbaycanlılar deportasiyaya məruz qaldılar.

İkinci isə 1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi. Nə tarixi əsası var idi, nə coğrafi əsası var idi, nə də iqtisadi əsası var idi. Heç bir əsası yox idi. Sadəcə olaraq, bizim canımıza bu süni bir cisim yeridildi ki, bir canlı bomba kimi orada dursun və vaxtında partlasın. Belə də oldu. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Onun da mərkəzi şəhəri bizim Xankəndi qəsəbəmiz olmuşdu. Ona da cəllad Stepan Şaumyanın adını verdilər, Stepanakert adlandırdılar. Xalqımıza iki böyük zərbə dəymişdi. Ondan sonra da zərbələr oldu. 1940-1950-ci illərdə Ermənistan ərazisindən - qədim Azərbaycan torpaqlarından azərbaycanlıların



deportasiyası, 1980-ci illərin sonlarında erməni separatizminin baş qaldırması və buna sovet hakimiyyəti tərəfindən reaksiyanın verilməməsi. Əksinə, separatçıları təhrik edirdilər, onların havadarları bizə meydan oxuyurdular. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək sovet vaxtında ortaya atılmış tezis idi.

Ardı Səh. 5

# İlham Əliyev: “Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi qürurla yaşayacağıq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər*





Əvvəli Səh. 4

## Prezident İlham Əliyev:

### Bu gün bu əraziləri bərpa etməklə biz tarixi ədaləti bərpa edirik



Heydər Əliyev hakimiyyətdən gedəndən iki həftə sonra bu, ortalığa atıldı. Görünür ki, çoxdan belə planlar var idi. Amma Heydər Əliyev amili, onun qətiyyəti və gücü imkan vermirdi ki, baş qaldırsınlar. O canlı bomba, hansı ki, 1923-cü ildə qoyuldu Azərbaycanda və o partladı o vaxt. O vaxtkı Azərbaycan rəhbərliyi, sadəcə olaraq, buna ya hazır deyildi, ya da ki, öz vəzifə borcunu yerinə yetirə bilmədi. Bəzi hallarda xəyanət etdi, satqınlıq etdi. Nəticə etibarilə hələ sovet vaxtında Dağlıq Qarabağ Muxtar Vilayəti faktiki olaraq Azərbaycandan defakto ayrılmışdı. Orada bir xüsusi komitə yaradılmışdı. O komitəyə rəhbərlik üçün Moskvadan ermənipərəst bir adam gətirilmişdi. Hansı ki, faktiki olaraq orada ermənilərlə birləşib bizə qarşı iş aparılırdı.

Azərbaycanlılar öz doğma torpağında artıq müdafiəsiz bir topluma çevrildilər. Ondan sonrakı tarix məlumdur. Biz isə tarixi, bu antiazərbaycan siyasətini geri çeviririk. Biz bəzilərinin heç yuxusuna gəlməyən işləri görürük. Bu gün bölgəyə tam sahibik, söz sahibiyik, işğal edilmiş torpaqları azad etmişik. Bu torpaqlarda indi möhkəmlənirik.

Mən görürəm, bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər Şuşa şəhərini azad edib, bununla bərabər Hadrutu azad edib, bununla bərabər Xocavənd rayonunun 60 faizini azad edib, Suqovuşan qəsəbəsini azad edib. Ona görə biz yeddi rayondan daha çox ərazini azad etmişik. Bu ərazilərin strateji əhəmiyyəti göz önündədir. Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi.

Mən bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deməliyəm ki, siz - onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır.

Bir daha sizi bu hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Sağ olun.

X X X

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Ramiz Cəfərovun həyat yoldaşı Sitarə Cəfərova, Vətən müharibəsi şəhidi Fərid Şamilovun atası Mirzə Şamilov və Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Ehtiram Məmmədov çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.









# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda yeni yaradılan “Gənclik” parkının açılışında iştirak ediblər

**Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonu ərazisində yeni yaradılan “Gənclik” parkının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov burada yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bir zamanlar baxımsız ərazi olan bu yerin indi həmin görkəmindən əsər-əlamət qalmayıb. Paytaxtın Xətai rayonunda yerləşən ərazi yenidən qurularaq Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib.

Hələ 2019-cu il noyabrın 11-də “Gənclik” parkı yeni salınarkən Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin “Təbiət naminə birləş, Həyat naminə birləş!” layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak edən dövlətimizin başçısı parkın abadlaşdırılması, təbii mənzərəsinin qorunub saxlanılması, burada əyləncə və idmanla məşğul olmaq üçün şəraitlə yanaşı, iaşə obyektlərinin qurulması, insanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun yaradılmasına dair tapşırıqlar vermişdi. Üzərindən qısa zaman keçməsinə baxmayaraq, tapşırıqlar tam şəkildə icra olunub və nəticədə yeni istirahət mərkəzi paytaxtın ən gözəl məkanlarından birinə çevrilib.







Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb. Buraya üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr edə bilərlər.

Gənclik parkı 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac əkilib, yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqlar parkda asudə vaxtlarını səmərəli keçirə biləcəklər.





Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradılıb.

“Gənclik parkı”nın tərtibatı zamanı hər bir detal xüsusi zövqlə hazırlanıb. Burada təqdim olunan “Ürəklər” kompozisiyası paytaxtımıza, təbiətimizə, insanlarımıza olan sevgini tərənnüm edir.





Burada bağlı və açıq futbol meydançaları inşa olunub. Parkda ziyarətçilər üçün piknik məntəqələri də var. Qaçış üçün cığırlar, eləcə də velosiped yolları parkın idmansevərlərin də ən çox üz tutduqları məkana çevriləcəyindən xəbər verir.

Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud yaşıllıq sahələrinin qorunması üzrə layihələr icra edir. Bu sahədə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.





Beləliklə, “Gənclik” parkı paytaxtda aparılan abadlıq-quruculuq işlərinə mühüm töhfə verməklə ölkənin sosial-ekoloji hədəflərinin reallaşdırılmasının davamlı xarakter aldığını bir daha təsdiqləyir.

# Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunda yenidən qurulan təhsil və təlim müəssisələrinin açılışında iştirak edib

***Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Xəzər rayonunun Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın, Şüvəlan qəsəbəsində 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusunun, Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasının açılışlarında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva əvvəlcə Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın yeni binasının açılışında iştirak etdi. Birinci vitse-prezident təhsil kompleksində yaradılan şəraitlə tanış oldu.

Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov məlumat verdi ki, 1960-cı ildən fəaliyyət göstərən gimnaziyanın ərazisindəki məktəb və yataqxana binaları istismara yararsız vəziyyətdə olduğundan söküldüb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə onun yerində gimnaziyanın yeni binası tikilib.





















Diqqətə çatdırılıb ki, xarici dillər təmayüllü gimnaziya 1029 şagird yerlikdir. Gimnaziyanın yeni binasında sinif otaqları, laboratoriya otaqları, informatika sinfi, hərbi hazırlıq otağı, kitabxana, yeməkxana yaradılıb. Kompleksin həyətində yerləşən Laçın məktəbinin binası, yataqxana korpusu da yenidən inşa edilib. 216 şagird yerlik Laçın rayonu 32 nömrəli tam orta məktəbində 12 sinif otağı, akt və qapalı idman zalları da fəaliyyət göstərir. Eyni zamanda, açıq havada futbol və idman meydançası yaradılıb. Ərazidəki yataqxana korpusu 185 yerlikdir. Üçmərtəbəli yataqxana binası zəruri mebel və avadanlıqlarla təchiz edilib.

X X X

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şüvəlan qəsəbəsində istifadəyə verilən 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusu ilə tanış oldu.

Məlumat verildi ki, 1972-ci ildən fəaliyyət göstərən 12 saylı xüsusi internat məktəbində dayaq-hərəkət pozğunluğu olan sağlamlıq imkanları məhdud 6-14 yaş həddində 120 şagird təhsil alır. Tədris korpusunun daxilində yerləşən yataqxana Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq tədris otaqlarına uyğunlaşdırılıb və müəssisənin ərazisində yeni yataqxana korpusu inşa edilib. Yeni yataqxana korpusu üçmərtəbəli olmaqla 128 nəfərlikdir. Korpusda yemək zalı, mətbəx sahəsi, tibb otağı, istirahət zonası, kitabxana, asudə vaxtın təşkili otaqları yaradılıb.

X X X

Daha sonra Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasında yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, bu uşaq bağçası da Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisəsinin yenidən qurulması işinə daha bir töhfəsidir. Vaxtilə fərdi yaşayış evi kimi inşa olunan bina 1957-ci ildən uşaq bağçasına uyğunlaşdırılıb. 1937-ci ildə inşa olunan bina qəzalı vəziyyətdə olduğundan sökülərək Heydər Əliyev Fondunun təşəbbüsü ilə yerində yeni bağça binası inşa edilib.

İstifadəyə verilən üçmərtəbəli uşaq bağçasında oyun otaqları, idman, musiqi və rəsm zalları, yataq otaqları, yeməkxana, tibb otağı, geyinib-soyunma otaqları və digər texniki otaqlar yaradılıb. Bağça zəruri mebel və avadanlıqlarla təchiz edilib. Uşaqların asudə vaxtının təşkili məqsədilə açıq havada oyun meydançası da yaradılıb, ərazi yaşıllaşdırılıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun fəaliyyətində prioritet sahələr sırasında elm və təhsilin inkişafı üzrə proqram və layihələr xüsusi yer tutur. Fondun 2014-cü ildən reallaşdırdığı "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bu sahədə mövcud problemlərin həllinə yönəlib. Heydər Əliyev Fondu qeyd olunan proqramı həyata keçirməklə bu istiqamətdə əhəmiyyətli töhfəsini verir. Proqram çərçivəsində təmirə ehtiyacı olan bağçaların yenidən qurulması və yeni bağçaların inşası həyata keçirilməkdədir.

# Mehriban xanım Əliyeva milyonlarla insanın dərin sevgisini, böyük rəğbətini qazanıb

**Müstəqilliyinin 30-cu ildönümünü qeyd etməyə hazırlaşan Azərbaycan dövləti ardıcıl nailiyyətlər qazanaraq milli tərəqqi yolunda sürətlə, inamla və əmin addımlarla irəliləyir, növbəti müvəffəqiyyətlərə yol açan yeni strateji zirvələr fəth edir. Bu gün Azərbaycan dünyada təkcə davamlı və dayanıqlı inkişaf yolu tutan müasir, demokratik ölkə kimi, tolerantlıq nümunəsi və multikultiralizm diyarı olaraq tanınmır. Bir əsrdə iki dəfə müstəqillik qazanan respublikamız, eyni zamanda, öz ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etmiş, müsbət beynəlxalq imicə sahib və müasir dünya siyasətinin nüfuz - güc iyerarxiyasında mütəmadi yüksəlişə malik prestijli dövlət olaraq səciyyələndirilir.**



Təbii ki, bütün bu müsbət reallıqları şərtləndirən başlıca strateji faktor müstəqillik illərində sabitlik və inkişafa, dirçəliş və rifaha xidmət edən rasional, milli maraqlara və müasir çağırışlara adekvat cavab verən praqmatik siyasi kursun həyata keçirilməsidir. Ölkəmizi tənəzzüldən xilas edərək intibah yoluna çıxaran, real müstəqilliyin əldə olunmasını təmin edən ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə, dövrün ictimai və siyasi qanunauyğunluqlarına müvafiq surətdə davam etdirilməsi nəticəsində milli tərəqqinin Azərbaycan nümunəsi



*Tahir Budaqov*
*YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri*

adlı fenomen yaranıb. Bu nümunə öz cəlbediciliyinə görə bütün dünyada maraqla öyrənilən, nüfuzlu reytinq agentliklərinin və tədqiqat mərkəzlərinin hesabatlarında yüksək dəyərləndirilən strateji model kimi xarakterizə olunur.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müxtəlif sahələri əhatə edən çoxşaxəli, səmərəli, ardıcıl və məqsədyönlü fəaliyyəti də ölkəmizin dayanıqlı inkişafına, xalqımızın rifahının daha da yaxşılaşmasına, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, respublikamızın müsbət beynəlxalq imicinin möhkəmlənməsinə və müxtəlif sahələrdə davamlı strateji nailiyyətlərin əldə olunmasına müstəsna töhfədir.

## Xalqa ləyaqətli və şərəfli xidmət nümunəsi

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi portretini tamamlayan cizgilər kifayət qədər zəngin və rəngarəngdir. O, ilk növbədə, hansı sahə və istiqamətdə fəaliyyət göstərməsindən asılı olmayaraq, öz üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirməklə xalqa ləyaqətli və şərəfli xidmət nümunəsi yaradıb. Mehriban xanım Əliyevanın "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır" sözləri, şübhəsiz ki, onun həyat və fəaliyyət kredosunu təşkil edir. Bu kontekstdə bir sıra nümunələrə xüsusi nəzər salmaq - diqqət yetirmək məqsədəmüvafiq olar.

Əvvəla qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyeva məhsuldar ictimai-siyasi fəaliyyəti ilə fəal, milli-mənəvi dəyərlərə, tarixi ənənələrə sadiq, vətənpərvər və xeyirxah Azərbaycan qadını obrazının formalaşmasında əvəzsiz rol oynayıb. O, nümunəvi həyat və fəaliyyəti ilə qadınlar üçün əsl örnək yaratmaqla yanaşı, zərif cinsin nümayəndələrinin cəmiyyətdə rolunun, müxtəlif sahələrdə fəallığının artmasına geniş stimul verib. Sevindirici haldır ki, Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadını hazırda öz istedadı, zəkası və iradəsi ilə milli-mənəvi dəyərlərimizin və zəngin irsimizin qorunub saxlanılmasında, yaşadılmasında müstəsna xidmətlər göstərir. Ölkəmizin ictimai-siyasi, mədəni həyatında geniş fəaliyyəti, öz bilik və bacarıqları ilə cəmiyyətimizin ümumi inkişafında yaxından iştirakı Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu bir daha təsdiqləyir.

Bununla yanaşı, Mehriban xanım Əliyeva Milli Məclisin deputatı kimi məqsədyönlü fəaliyyət göstərməklə ictimai-siyasi yaddaşda dərin iz buraxıb. O, millət vəkili statusunda çox mühüm ictimai əhəmiyyətli təşəbbüslər irəli sürüb, təkcə seçicilərini deyil, bütövlükdə, Azərbaycan xalqını maraqlandıran məsələlərlə əlaqədar zəruri addımlar atıb, sosial problemlərin həllinə xüsusi diqqət göstərib və buna müvəffəq olub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən genişmiqyaslı və ümumi-ictimai əhəmiyyətli tədbirlər sırasında Amnistiya aktlarının qəbul olunması xüsusi yer tutur. Daha dəqiq desək, onun təşəbbüsü ilə Milli Məclisdə Amnistiya aktlarının qəbul olunması və bunun sayəsində minlərlə məhkumun azadlığa qovuşması, yenidən cəmiyyətə inteqrasiya olunması təqdirəlayiq hal kimi sosial-ictimai cəhətdən çox mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, həm millət vəkili kimi təmsil etdiyi seçiciləri, həm də bütövlükdə Azərbaycan xalqı Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı statusunda fəaliyyətini çox yüksək dəyərləndirərək - təqdirlə qarşılayaraq öz inam və etimadlarını ifadə ediblər.



Mehriban xanım Əliyevanın, həmçinin respublikamızın Birinci vitse-prezidenti kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi xalqın ona olan sevgisinin və rəğbətinin daha da artmasına səbəb olub. Bu məqamda qeyd etmək lazımdır ki, Azərbaycanda həyata keçirilən çoxşaxəli, genişmiqyaslı, kompleks xarakterli və sistemli islahatların tərkib hissəsi kimi vitse-prezidentlik institutunun yaradılması ötən müddət ərzində idarəetmənin səmərəliliyinin və çevikliyinin artmasına, bir sıra mühüm strateji hədəflərin gerçəkləşməsinə imkan verib. Xüsusilə də, Mehriban xanım Əliyevanın respublikamızın Birinci vitse-prezidenti kimi məqsədyönlü fəaliyyəti Azərbaycanın milli gücünün artmasına müstəsna töhfə olub, ölkəmizin qarşısında yeni və çox mühüm strateji perspektivlər açılıb. Daha dəqiq desək, Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən, Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması ilə Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyulub. "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam",-deyən Mehriban xanım Əliyeva öz vədinə - Vətənə, xalqa və dövlətə sədaqətlə xidmət sözünə əməl edərək strateji missiyasını layiqincə yerinə yetirmək və qüdrətli Azərbaycan naminə mühüm nailiyyətlərə imza atmaq xoşbəxtliyinə müvəffəq olub. Ötən zaman müddətində Birinci vitse-prezidentin təşəbbüsü ilə əhalinin geniş təbəqələrini əhatə edən çox mühüm addımlar atılıb, xüsusilə də vətəndaşlarımızı maraqlandıran sosial məsələlərin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Ayrıca qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyeva cəmiyyətin həssas təbəqələrinin istəklərinin yerinə yetirilməsi - onların problemlərinin həll olunması istiqamətində fəaliyyətə xüsusi önəm verir. Onun Birinci vitse-prezident vəzifəsində 2017-ci il martın 9-da keçirdiyi ilk müşavirənin məhz Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsi məsələsinə həsr olunması deyilənlərin bariz nümunəsidir. Vurğulamaq gərəkdir ki, həmin müşavirədən sonra qəzalı binalarda yaşayan məcburi köçkün ailələrinin köçürülməsi üçün tədbirlər planı hazırlanıb, yeni yaşayış komplekslərinin təməli qoyulub, məcburi köçkünlərə mənzillər təqdim edilib və digər müvafiq addımlar atılıb. Sonrakı illərdə də bu proses davamlı xarakter daşıyıb. Bunlarla yanaşı, yeni layihələr əsasında ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə yaralananların xüsusi tibbi xidmətlərlə təmin olunmaları, əlillərə, müharibə veteranlarına, qazilərə, şəhid ailələrinə və erməni vandalizmindən, müharibədən əziyyət çəkən digər kateqoriyadan olan insanlara sosial dəstək xarakterli işlərin görülməsi də xüsusi qeyd edilməlidir. Bu, Mehriban xanım Əliyevanın dövlət idarəçiliyi sahəsində fəaliyyətinin milli maraqlara və çağdaş qlobal çağırışlara adekvat cavab verməklə yanaşı, humanizm və vətənpərvərlik prinsiplərinə də əsaslandığını göstərir.

Mehriban xanım Əliyevanın dövlətçilik maraqlarının qorunmasına və milli həmrəyliyin gücləndirilməsinə xidmət edən ictimai-siyasi fəaliyyətinin çox mühüm istiqamətlərindən birini qurucusu ümummilli liderimiz Heydər Əliyev olan Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər təşkil edir. İnkaredilməz həqiqətdir ki, YAP ötən müddət ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçib, çox mühüm - tarixi əhəmiyyətə malik olan nailiyyətlər qazanıb. Sıralarında Azərbaycan cəmiyyətinin, demək olar ki, bütün təbəqələrindən olan, sağlam düşüncəli və möhkəm əqidəli insanları birləşdirən Yeni Azərbaycan Partiyasının fəaliyyətinin səmərəliliyini təmin edən mühüm strateji amillərdən biri partiyanın struktur və təşkilati nöqteyi-nəzərdən yenilənməsi, islahatlar çərçivəsində təkmilləşməsidir. Xüsusilə də, partiyanın qurultaylarında qəbul edilən qərarlar YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amildir. Ən əsası, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini, 2021-ci ilin mart ayının 5-də baş tutmuş VII Qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, YAP-ın və

dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir. Əminliklə vurğulamaq olar ki, Mehriban xanım Əliyevanın fəaliyyəti bundan sonra da Ümummilli Liderimizin siyasi mirası olan YAP-ın yeni nailiyyətlər əldə edərək öz nüfuzunu daha da artırması, Azərbaycanın sürətli və hərtərəfli inkişafına davamlı töhfə verməsi baxımından olduqca əlamətdar olacaq.

## Heydər Əliyev Fondu milli məqsədlərin və strateji hədəflərin gerçəkləşdirilməsində mühüm rol oynayır

Mehriban xanım Əliyevanın xalqımızın həmrəyliyinin gücləndirilməsinə və Azərbaycanın davamlı - dayanıqlı inkişafına xidmət edən çoxşaxəli fəaliyyətinin mühüm istiqamətlərindən birini Heydər Əliyev Fonduna uğurla rəhbərlik etməsi təşkil edir. Fondun genişmiqyaslı və beynəlxalq əhəmiyyətli fəaliyyəti, müxtəlif sahələri əhatə edən layihələrin reallaşdırılması, heç şübhəsiz, ictimai-sosial, tarixi, mədəni, humanitar nöqteyi-nəzərdən böyük önəm daşıyır. Bütövlükdə, 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Ən əsası, Heydər Əliyev Fondu Ümummilli Liderimizin zəngin irsinin araşdırılması və bu irsin xalqımızın mənəvi sərvəti kimi gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayır. Bu, həm Heydər Əliyev fenomeninin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində əvəzolunmaz yerinin və rolunun daha dərindən öyrənilməsi, həm də müstəqil Azərbaycan dövlətinin keçdiyi inkişaf yolunun siyasi, iqtisadi, mədəni, humanitar, tarixi aspektlərinin fundamental səviyyədə tədqiq olunması baxımından xüsusi önəm daşıyır. Təsadüfi deyil ki, Heydər Əliyev ideyalarını dərindən mənimsəyən, milli məfkurəmiz olan azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşən gənc nəslin nümayəndələri qüdrətli Azərbaycan dövlətinin sağlam düşüncəli vətəndaşları kimi ölkəmizin inkişafına mühüm töhfə verir, respublikamızı beynəlxalq arenada layiqincə təmsil edirlər.

Əlbəttə, Ulu Öndərimizin adını daşıyan, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti olduqca genişmiqyaslı və dərinməzmunludur, ictimai həyatın bütün sahələrini əhatə edir, eyni zamanda, Azərbaycanın inzibati-coğrafi sərhədləri ilə məhdudlaşmır. Ümumiləşdirsək, qeyd edə bilərik ki, Fond bir çox sahələrdə olduqca mühüm işlər görür. Bu kontekstdə konkret olaraq aşağıdakı istiqamətlərdə həyata keçirilən tədbirləri sadalaya bilərik:

- Cəmiyyətin yaradıcı və elmi-intellektual potensialının artırılmasına maddi, mənəvi və təşkilati dəstəyin göstərilməsi;

- Milli-mənəvi dəyərlərin qorunması, gənc nəslin tarixi ənənələr və milli dəyərlər əsasında tərbiyə olunması, vətənpərvərliyin təbliği istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi;

- Multikulturalizmin, tolerantlığın, sivilizasiyalararası dialoqun, mədəniyyətlərin inteqrasiyası ideyasının təbliği və təşviqi istiqamətində ardıcıl işlərin görülməsi - mühüm layihələrin reallaşdırılması;

- Vətəndaş cəmiyyəti quruculuğuna və milli həmrəyliyin gücləndirilməsinə davamlı dəstək verilməsi;

- Təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə infrastruktur quruculuğu istiqamətində ardıcıl addımlar atılması;

- Xeyirxahlıq, humanizm kimi ümumbəşəri və ali dəyərlərin təbliğinin həyata keçirilməsi və s.

Xüsusilə də, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələr, icra olunan proqramlar, qeyd etdiyimiz kimi, təhsil və səhiyyə sahəsində müasir infrastruktur quruculuğuna, bu istiqamətlərdə davamlı inkişafa ciddi dəstək xarakteri daşıyır. "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramların həyata keçirilməsi, yeni məktəb binalarının inşa olunması və yenidən qurulması, uşaq müəssisələrinin əsaslı şəkildə təmir edilməsi və digər addımlar cəmiyyətdə böyük minnətdarlıqla və bütövlükdə, ümummilli təqdirlə qarşılanır. Eyni zamanda, Mehriban xanım Əliyevanın təşəbbüsü olan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi unikal layihələr çərçivəsində görülən işlər, xeyriyyə aksiyalarının təşkil olunması sağlam ictimai gələcəyin inşasında vacib rol oynayır.

## Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətin diqqətinə təqdim olunması informasiya müharibəsi və tarixi Zəfərimiz kontekstində

Mehriban xanım Əliyevanın fəaliyyətinin çox mühüm istiqamətlərindən birini Azərbaycan reallıqlarının dünya ictimaiyyətinin diqqətinə çatdırılması - ölkə həqiqətlərinin beynəlxalq səviyyədə sistemli təbliği təşkil edir. İnkaredilməz reallıqdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dərin strateji diplomatiya siyasəti Azərbaycanın tarixi Zəfər qazanmasını - ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasını təmin edən çox



mühüm amillərdən biridir. Bu kontekstdə dövlət başçısının qlobal məzmun daşıyan informasiya strategiyası çox mühüm faktordur. Daha dəqiq desək, bu strategiya çərçivəsində şaxələndirilmiş fəaliyyət Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə təqdim olunması, anti-Azərbaycan dairələrin qara piar kampaniyasının iflasa uğradılması, erməni yalanlarının ifşa olunması kimi strateji hədəfləri əhatə edir. Məhz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər də bu kontekstdə effektiv addımların atılması və real nəticələrin əldə olunması baxımından çox əhəmiyyətlidir.

Bəhs olunan yöndə sistemli fəaliyyətin əsas istiqamətlərindən biri Azərbaycanın haqq işi - milli mübarizəsi ilə əlaqədardır. Bu baxımdan, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar beynəlxalq təbliğat missiyası fonunda məqsədyönlü layihələr reallaşdırması xüsusi qeyd edilməlidir. Fond tərəfindən keçmiş münaqişə ilə əlaqədar müasir və təkmil internet resurslarının yaradılması, müxtəlif dillərdə "Qarabağ həqiqətləri" adlı bukletlərin hazırlanması, geniş auditoriyaya paylanması və digər addımlar dünya ictimaiyyətinə problemin səbəbləri haqqında kifayət qədər doğru - obyektiv məlumatın çatdırılmasına imkan verib. Fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfransların, tədbirlərin keçirilməsi, "Xocalı soyqırımı" filminin, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillərin, xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materialların təqdim olunması da sistemli təbliğat işlərinin tərkib hissəsi kimi xüsusi önəm daşıyır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə əsası qoyulan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası isə öz səmərəli nəticələri ilə Azərbaycan dövlətinin bəhs olunan istiqamətdə məqsədyönlü diplomatik fəaliyyətinə çox mühüm dəstək kimi böyük əhəmiyyətə malikdir. Bir sıra ölkələrin qanunverici orqanlarının - parlamentlərinin Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qərarlar qəbul etməsində, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulmasında "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının müstəsna rolu vardır.

Yeni mərhələdə - postkonflikt dövründə də bu beynəlxalq əhəmiyyətli sistemli fəaliyyət uğurla davam etdirilir. Yeri gəlmişkən, Qarabağ Dirçəliş Fondunun Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Meh-



riban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirdiyi "Karabakh.Center" layihəsi də informasiya müharibəsində Azərbaycanın strateji mövqelərinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bu internet resursunun çoxsaylı materiallarının konkret nümunələr əsasında Azərbaycan xalqının Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaratması qlobal müstəvidə mövcud reallıqlara obyektiv baxışın əhatə dairəsinin genişləndirilməsi üçün çox önəmlidir.

Bütövlükdə, erməni vandalizminin real faktlar əsasında dünyada ifşa olunması, beynəlxalq informasiya platformasında Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, müharibəsonrası praqmatik və çoxvektorlu diplomatik fəaliyyətə informasiya dəstəyinin verilməsi kimi istiqamətlərdə həyata keçirilən tədbirlər strateji xarakter daşıyır. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyasının tərkib hissəsi kimi qlobal ictimai rəyin daim Azərbaycanın lehinə olması hədəfinə çatmağa real imkanlar - əlverişli zəmin və şərait yaradır.

## Mədəniyyət diplomatiyası xalqımızın zəngin tarixi və mədəni irsinin geniş beynəlxalq auditoriyaya çatdırılmasına xidmət edən strateji faktor kimi

Qeyd etdiyimiz kimi, Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin təbliği, mənəvi irsimizin qorunması, Azərbaycanın zəngin tarixi və mədəni mirasının dünya ictimaiyyətinə çatdırılması istiqamətində genişmiqyaslı fəaliyyəti dərin milli məzmun və qlobal xarakter daşıyır. 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, həmçinin 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə Azərbaycan, ingilis və rus dillərində çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edilməsi, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bir çox ölkədə xalqımızın milli-mənəvi dəyərlərinin, Azərbaycan xalqının zəngin mədəniyyət nümunələrinin tanıdılması ilə əlaqədar sərgilərin keçirilməsi kimi addımlar mədəniyyət diplomatiyasının tərkib hissəsi kimi olduqca böyük önəmə malikdir. Eyni zamanda, Heydər Əliyev Fondunun dəstəyi ilə mütəmadi olaraq Qəbələ Beynəlxalq Musiqi Festivalının keçirilməsi, Şərq və Qərb musiqisini - mədəni dəyərlərini nümayiş etdirən bu tədbir çərçivəsində məşhur ifaçılar və bəstəkarların bir araya gəlməsi, Fondun 2009-cu ildən etibarən bir sıra dövlət qurumları ilə birgə Respublika muğam müsabiqəsi və Beynəlxalq Muğam Festivalı təşkil etməsi və digər mühüm tədbirlər Azərbaycan xalqının zəngin mədəni dəyərlərinin, mənəvi sərvətlərimizin, ölkəmizdəki yaradıcılıq, tolerantlıq və multikulturalizm mühitinin geniş beynəlxalq platformada təbliğ olunması işinə misilsiz töhfədir.

Bunlarla yanaşı, ölkəmizin müsbət və mütərəqqi simasının tanıdılmasında, zəngin mədəniyyətimizin təbliğində UNESCO platformasından geniş istifadə olunması da təqdirəlayiq hal kimi olduqca faydalıdır. Heydər Əliyev Fondunun BMT-nin ən mötəbər qurumlarından olan UNESCO ilə əlaqələri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Özəlliklə diqqətə çatdırmaq gərəkdir ki, Heydər Əliyev Fondunun rəhbəri və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətinin nəticəsində bu zamana qədər İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Həmçinin Azərbaycan UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib. Eyni zamanda, mötəbər beynəlxalq qurumlarda, dünyanın müxtəlif ölkələrində sərgilərin, mədəniyyət gecələrinin və digər tədbirlərin təşkili, eləcə də Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılması, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələrinin ucaldılması Azərbaycan reallıqlarının təbliği kontekstində çox əhəmiyyətlidir.

Mədəniyyət diplomatiyası çərçivəsində Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər - görülən işlər Şərqlə Qərb arasında mənəvi körpü rolunu oynayan Azərbaycanın beynəlxalq miqyasda sivilizasiyalararası dialoqun inkişafına stimul - impuls verməsini də şərtləndirir, ölkəmizin humanitar sahədə ikitərəfli əlaqələrinin inkişafına müsbət təsir göstərir. Fransa, İtaliya, Bolqarıstan və başqa bir sıra ölkələrdə dini-mədəni abidələrin bərpası kimi addımlar, "Bakı prosesi"nin uğurla davam etdirilməsi və digər faktorlar Azərbaycanın multikultural dəyərlərə həssas münasibətinin və yüksək hörmətinin, xalqlararası əməkdaşlığın dərinləşdirilməsinə davamlı dəstəyinin bariz nümunəsi kimi olduqca diqqətəlayiqdir.

Ardı Səh. 10

# Mehriban xanım Əliyeva milyonlarla insanın dərin sevgisini, böyük rəğbətini qazanıb



Əvvəli Səh. 9

Bunlarla yanaşı, xalqımızın sarsılmaz həmrəyliyinin, qətiyyətli mübarizə əzminin ifadəsi və dövlətimizin qüdrətinin rəmzi olan "Dəmir yumruğun" düşmənin başını əzməsi - belini qırması nəticəsində qazanılan tarixi Zəfərdən sonra yeni mərhələdə də mədəniyyət diplomatiyası uğurla davam etdirilir. Bu, xüsusilə Azərbaycan xalqının maddi irsinə, tarixi-mədəni abidələrinə qarşı həyata keçirilmiş terror fəaliyyətinin - erməni vandalizminin ifşası və faktların beynəlxalq aləmə təqdim olunması üçün vacibdir.

Yeri gəlmişkən, Azərbaycanın böyük Qələbəsindən sonra 12-13 may 2021-ci il tarixində Şuşanın Cıdır düzündə Prezident İlham Əliyevin təşəbbüsü və Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalının keçirilməsi xüsusi tarixi, siyasi, ictimai və mədəni əhəmiyyətə malikdir. "Xarıbülbül" festivalı Azərbaycanın zəngin tarixi-mədəni ənənələrini bir daha dünyaya nümayiş etdirməklə yanaşı, xalqımızın tolerantlıq və multikulturalizm dəyərlərinə sadiqliyini, ölkəmizdə müxtəlif dinlərə və millətlərə mənsub olan insanların vahid ailə kimi sülh, təhlükəsizlik şəraitində mehriban birgəyaşayışa malik olduğunu növbəti dəfə təsdiqlədi. Təbii ki, Azərbaycanın mədəniyyət paytaxtı və Qarabağın tacı Şuşanın işğaldan azad olunmasından sonra ilk dəfə keçirilən "Xarıbülbül" festivalında ölkəmizdə yaşayan müxtəlif xalqların yaradıcılıq nümunələrinin nümayiş etdirilməsi həm də musiqinin dili ilə verilən dərin və konkret ictimai-siyasi mesaj kimi böyük rəmzi məna daşıyır. Bu, hər şeydən əvvəl, Vətən müharibəsində qələbəmizi təmin edən çox mühüm amillərdən biri olan ictimai həmrəyliyin - milli birliyin bariz nümunəsi - əyani ifadəsidir.

### Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə müstəsna töhfə

Sadalananlarla yanaşı, Mehriban xanım Əliyevanın Azərbaycan reallıqlarının sistemli təbliğinə və ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən məqsədyönlü fəaliyyətindən bəhs edərkən onun böyük təşkilatçılıq bacarığı sayəsində respublikamızın mötəbər tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsini xüsusi vurğulamaq gərəkdir. Sirr deyil ki, sabitlik adası və təhlükəsizlik məkanı kimi tanınan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq mərkəzi olaraq səciyyələndirilir. Bunu təsdiq edən mühüm amillərdən biri respublikamızda mötəbər beynəlxalq tədbirlərin uğurla keçirilməsidir. Bu barədə bir neçə fakta nəzər yetirmək məqsədəmüvafiq olar.

Avropanın "musiqi bayramı" kimi səciyyələndirilən nüfuzlu "Eurovision" beynəlxalq mahnı müsabiqəsinin 2012-ci ildə Bakıda ən yüksək səviyyədə keçirilməsi ölkəmizin dünyada tanıdılması işində xüsusi rol oynayıb. Eyni zamanda, 2015-ci ildə paytaxtımızda baş tutan ilk Avropa Oyunları zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin yüksək əzmkarlığı sayəsində Azərbaycan Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. Sözügedən oyunların möhtəşəm açılış və bağlanış mərasimləri unikal - bənzərsiz nümunə kimi beynəlxalq səviyyədə heyrətlə və rəğbətlə qarşılanıb. Bu, həmçinin Azərbaycan dövlətinin potensialını, gücünü, xalqımızın mənəvi dəyərlərini və ali keyfiyyətlərini bütün dünyaya nümayiş etdirib. 2017-ci ildə paytaxt Bakıda keçirilən IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərib, nəticə etibarilə, Azərbaycan IV İslam Həmrəylik Oyunlarına müvəffəqiyyətlə ev sahibliyi edib. Bu, həm də mədəniyyətlərarası dialoqun inkişafında və təşviqində vacib rol oynayan Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsinə daha bir töhfəsi olub.

Beləliklə, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində ölkəmizdə uğurla keçirilən bəhs olunan və digər mötəbər tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına təkan verib. Ümumiyyətlə, Azərbaycanın prestijli beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət və idman tədbirlərinə ev sahibliyi etməsi bir çox cəhətdən strateji önəm daşıyır. Ən əsası, bu, ölkəmizin beynəlxalq arenada mövqeyinin daha da güclənməsi, Azərbaycanın imkanlarının geniş qlobal ictimaiyyətə təqdim olunması - milli reallıqların təbliği baxımından çox əhəmiyyətlidir.

### Coğrafi sərhədləri aşan çoxşaxəli və xoşməramlı fəaliyyət beynəlxalq arenada - geniş qlobal platformada olduqca yüksək qiymətləndirilir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli, ali məqsədlərə və ümumbəşəri dəyərlərə əsaslanan fəaliyyəti təkcə ölkə daxilində deyil, beynəlxalq arenada - geniş qlobal platformada da olduqca yüksək qiymətləndirilir. Bu isə təsadüfi deyil, çünki Mehriban Əliyevanın həyat kredosunu təşkil edən prinsiplərin ehtiva olunduğu genişmiqyaslı fəaliyyəti xeyirxahlığın və humanizmin nümunəsi olmaqla yanaşı, xalqlar arasında ortaq dəyərlər əsasında inteqrasiyanın sürətləndirilməsinə, mədəniyyətlərarası paritet və ahəngdar dialoqun inkişafına xidmət göstərir. Təsadüfi deyil ki, müxtəlif dövlətlərin rəsmiləri, dünya miqyasında nüfuzlu siyasətçilər, populyar ictimaiyyət və mədəniyyət xadimləri, alimlər, tədqiqatçılar Mehriban xanım Əliyevanın ayrı-ayrı sahələrin inkişafına mühüm töhfələr verən xoşməramlı fəaliyyətini təqdir edən olduqca dəyərli fikirlər ifadə edirlər. Bu isə respublikamızın Birinci vitse-prezidentinin, Heydər Əliyev Fondunun prezidentinin, UNESCO və ISESCO-nun xoşməramlı səfirinin yüksək ideallara əsaslanan, mütərəqqi ideyaları və çağırışları özündə ehtiva edən, bəşəriyyətin təmənna və gözləntilərinə adekvat cavab verən fəaliyyətinin hər hansı inzibati-coğrafi sərhədlərlə məhdudlaşmadığını, məzmun və mahiyyət etibarilə bəşəri əhəmiyyət və beynəlmiləl xarakter daşıdığını bir daha təsdiqləyir.

Bunlarla yanaşı, Mehriban xanım Əliyevanın miqyas etibarilə geniş və əhatəli, mahiyyətcə dərin və faydalı strateji, xoşməramlı fəaliyyəti nəticəsində çoxlu sayda nüfuzlu mükafatlara layiq görülməsi təsadüfi deyil. Təbii ki, milli və beynəlxalq səviyyədə elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafına verdiyi töhfələrə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə bir çox beynəlxalq mükafata layiq görülməsi Mehriban xanım Əliyevanın fəaliyyətinə verilən yüksək dəyərin - obyektiv qiymətin ifadəsidir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeninə layiq görülməsi, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı və digər mükafatlarla təltif olunması Mehriban xanım Əliyevanın nümunəvi - fenomenal fəaliyyəti ilə fərqləndiyini və yüksək beynəlxalq nüfuza malik olduğunu göstərən mühüm faktorlardandır. Bu, eyni zamanda, müasir beynəlxalq münasibətlər sistemində güclü dövlət, müstəqil siyasət həyata keçirən nüfuzlu respublika kimi tanınan Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə müstəsna töhfədir.

### Mehriban xanım Əliyevanın ən böyük mükafatı xalqın ona olan dərin rəğbəti, tükənməz sevgisi, sarsılmaz inamı və güclü etimadıdır

Əlbəttə, çoxsaylı orden və medallarla təltif olunan, fəxri adlara layiq görülən Mehriban xanım Əliyevanın ən böyük mükafatı xalqın ona olan dərin rəğbəti, tükənməz sevgisi, sarsılmaz inamı və güclü etimadıdır. Bu isə nüfuzlu siyasətçi və populyar ictimai persona üçün, sözün əsl mənasında, böyük üstünlük və mənəvi sərvətdir.



Yeri gəlmişkən, Mehriban xanım Əliyeva Birinci vitse-prezident təyin olunduqdan bir neçə gün sonra "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində "Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam", - deyə bildirməklə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyini bəyan etmişdi. Ötən zaman müddəti bu vədin əməli surətdə özünü doğrultduğunu göstərdi. Daha dəqiq desək, Mehriban xanım Əliyeva öz nümunəvi fəaliyyəti ilə dövlət başçısının, ona inamını ifadə edən, böyük ümidlər bəsləyən insanların etimadını ən yüksək səviyyədə doğrultmağı bacarıb!

Nəticə etibarilə, müxtəlif statuslarda çoxşaxəli və genişmiqyaslı səmərəli fəaliyyəti ilə həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə mühüm nailiyyətlərə imza atan, xalqımızın və dünya miqyasında geniş ictimaiyyətin böyük rəğbətini qazanan Mehriban xanım Əliyevanın həyat yolu parlaq nümunədir. Ülvi məqsədləri, ali dəyərləri özündə ehtiva edən, müsbət reallıqları əks etdirən bu fəaliyyət, eyni zamanda, Azərbaycanın gələcəyinə işıq salır, bundan sonra da milli və qlobal məzmunlu işlərin böyük əzmlə və qətiyyətlə davam etdirilməsinə geniş imkanlar yaradır. Əminliklə söyləmək olar ki, Mehriban xanım Əliyeva qarşıdakı dövrdə də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən yaxın silahdaşı kimi yerli və beynəlxalq ictimaiyyət tərəfindən təqdirlə qarşılanan fəaliyyətini uğurla davam etdirəcək, ölkəmizin strateji hədəflərinin reallaşdırılmasına öz misilsiz töhfəsini verəcək!

# Vətənə sədaqət, milli dəyərlərə hörmət Mehriban Əliyevanın fəaliyyətinin əsas prinsipləridir

"Xeyirxahlıq və humanizm Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyətinin əsas prinsipləridir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin irsini təbliğ etməklə yanaşı, ayrı-ayrı sahələrdə həyata keçirdiyi layihələri ilə diqqətdədir. Bu gün bu fikri böyük inamla və fəxrlə qeyd edirik ki, ölkə vətəndaşlarının üz tutduğu ünvan dövlətimizin başçısı cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadır. Uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizi nəzərə alsaq, bu gün dövlətimizin, hər bir vətəndaşın şəhid ailələrinə və qazilərə diqqət və qayğısı prioritetdir. Şəhid ailələri və qazilərimiz Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. Qazilərimizin müalicəsi istiqamətində Heydər Əliyev Fondunun fədakarlığı yüksək dəyərləndirilir. Mehriban xanım Əliyevanın xalqımıza ünvanladığı bütün müraciətlərinin sonunda qeyd olunan "Dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN" kəlməsi onun dövlət, xalq sevgisini ortaya qoymaqla yanaşı, bu birlikdən, həmrəylikdən qürur hissi keçirdiyini, fəaliyyətində əsas amil kimi öndə saxladığını təsdiqləyir. Xalqın sevgisi Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə verilən qiymətlər, aldığı mükafatlar arasında xüsusi yer tutur". Bu fikirləri Milli Məclisin deputatı Ağalar Vəliyev SİA-ya açıqlamasında deyib.

A.Vəliyev qeyd edib ki, hər kəs Mehriban xanım Əliyevaya mərhəmət, xeyirxahlıq və humanizm simvolu kimi baxır: "Heydər Əliyev Fondunun Azərbaycan təhsilinin,səhiyyəsinin,idmanının, mədəniyyətinin inkişafı, ən əsası ölkəmizin beynəlxalq aləmdə



təbliği istiqamətində həyata keçirdiyi layihələrə diqqət yetirmək kifayətdir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə təhsillə bağlı bir çox önəmli layihə və proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir. Azərbaycanda təhsilin inkişafına böyük həssaslıqla yanaşan Mehriban xanımın təşəbbüsü ilə Fond bütün ölkə ərazisində "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ilə yanaşı, "İnternat məktəblərinin inkişafı", "Təhsilə dəstək" kimi proqramların icrasını da həyata keçirərək dövlət təhsil siyasətinin reallaşmasında müstəsna əhəmiyyətə malik işlər görür. Təkcə 2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə, o cümlədən Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də müxtəlif rayonlarda 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq istifadəyə verilib. Fond "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş uşaqları müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və digər dərmanlarla təmin edir. Bakıda talassemiyalı xəstələr, uşaqlar üçün Mərkəzin, tələbatı ödəyəcək qədər Qan Bankının yaradılması gələcək nəslin sağlamlığı üçün ən böyük töhfədir. "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində görülən işlər də deyilənlərin təsdiqidir".

Deputat qeyd edib ki, Vətənə sədaqət, milli dəyərlərə hörmət və uğurlu fəaliyyət Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdir. Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdimatı mərasimində söylədiyi bu fikirləri xatırlatmaq istərdik: "Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır". Mehriban xanım Əliyeva daim bu çağırışı da edir ki, gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır.

Millət vəkili Mehriban xanım Əliyevanın siyasi fəaliyyətindən bəhs edərək, onun ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini kimi fəaliyyətini yüksək dəyərləndirib. Ulu öndər Heydər Əliyev irsinin təbliği missiyasını yerinə yetirən Heydər Əliyev Fondunun Prezidenti kimi, həm də dahi şəxsiyyətin adı ilə bağlı olan partiyanın inkişafına dəstək olmaq qürurvericidir.

"Mehriban xanım Əliyevanın gördüyü işlərin dövlətə, xalqa verdiyi səmərə ölçüyəgəlməz dərəcədə dəyərli və əhəmiyyətlidir" söyləyən millət vəkili bildirib ki, Prezident İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial, humanitar və iqtisadi siyasətin həyata keçirilməsində böyük əməyi vardır. Müasir Azərbaycanın quruculuğunda bu tandem mühüm əhəmiyyət kəsb edir: "Birinci vitse-prezident kimi fəaliyyəti dövründə Mehriban xanım Əliyeva qısa müddətdə özünün peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini açmış, idarəetmədə qadınların rolunun artmasına səbəb olmuşdur. Mehriban xanım ölkəmizdəki qadın hərəkatı tarixində ilk şəxsiyyətdir ki, maarifçilikdən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət məkanını əhatə edir. Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda, sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual məsələləri də əhatə edir. Bütün bu qeyd edilən məsələlərə əsasən deyə bilərik ki, bu gün Mehriban xanım Əliyevanın Azərbaycanı dünyada mədəniyyət carçısı, sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlıq məkanı kimi təqdim etməsi Prezident İlham Əliyevin müzəffər lider portretini uğurla tamamlayır".

# YAP Saatlı rayon təşkilatının IX hesabat konfransı keçirilib

**Avqustun 26-da Yeni Azərbaycan Partiyası Saatlı rayon təşkilatının videoformatda IX hesabat konfransı keçirilib. Əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**




Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyevin hesabat məruzəsi dinlənilib. Bildirib ki, müstəqil Azərbaycan Respublikasının banisi, ümummilli



lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyət və sədaqətlə davam etdirilməsi nəticəsində ölkəmiz ildən-ilə qüdrətlənir və inkişaf edir. Bu tərəqqini hər bir Azərbaycan vətəndaşı rifah halının yüksəlməsi, özünün sosial vəziyyətinin yaxşılaşması şəklində görür, yaşayır və hiss edir.

L.Şıxəliyev qeyd edib ki, hesabat dövründə 1694 nəfər partiya



sıralarına üzv qəbul edilib ki, onlardan 769 nəfərini qadınlar, 1237 nəfərini isə gənclər təşkil edir. Hazırda YAP Saatlı rayon təşkilatının 70 ərazi ilk partiya təşkilatı özündə 11182 üzvü birləşdirir. Onlardan 3696 nəfəri qadınlar, 3309 nəfəri isə gənclərdir.

Sonra YAP Saatlı rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Vasif Allahverdiyev hesabat məruzəsi ilə çıxış edib.

Müzakirələr zamanı çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin deputatı Əziz Ələkbərov, YAP Saatlı rayon təşkilatı Qadınalar Şurasının üzvü Günay Həmidova, rayon təşkilatının Şura üzvü Lətif Şimşəkov və rayon təşkilatının Gənclər Birliyinin sədri Pərviz Təhməzov hesabat dövründə görülən işlərdən bəhs ediblər.





Konfransda çıxış edən YAP



Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bu günki konfransın çox əlamətdar günə təsadüf etdiyini bildirib. Qeyd edib ki, öz əməli fəaliyyəti, göstərdiyi xidmətlərə görə nəcibliyin, xeyirxahlığın, humanizmin rəmzinə çevrilən, nümunəvi Azərbaycan qadını olan Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın doğum günüdür: "Bu münasibətlə Mehriban xanım Əliyevanı təbrik edir, ona çoxşaxəli və çoxhəcmli geniş fəaliyyətində böyük uğurlar arzu edirəm. Mehriban xanım Əliyevanın humanitar, mədəni, təhsil, səhiyyə və digər sahələrdə apardığı işlər ölkəmizin inkişafına böyük töhfələr verib. Hesab edirəm ki, Mehriban xanım Əliyevanın ən böyük xidmətləri dövlətçilik maraqlarının qorunmasında və milli həmrəyliyin gücləndirilməsində göstərdiyi töhfələrdir. Mehriban xanım Əliyevanın çoxlu təltifləri, orden və medalları var. Hesab edirəm ki, Mehriban xanım Əliyevanın ən böyük təltifi xalqımızın ona olan sevgisi, etibarı, etimadı və inamıdır. Mehri-



ban xanım Əliyevanın 44 günlük Vətən müharibəsində Prezident, Partiyamızın sədri, Ali Baş Komandan cənab İlham Əliyevin daim yanında olması və verdiyi mənəvi dəstək qazanılan qələbədə xüsusi rol oynayıb".

Qələbəmizin yaratdığı reallıqların gerçəkləşməsində Yeni Azərbaycan Partiyasının rolundan bəhs edən Ə.Tağıyev YAP Saatlı rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Saatlı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri ölkə başçısının diqqət mərkəzindədir



**HƏMİD PƏNAHOV,**
**YAP Qazax rayon təşkilatının sədri**

Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır. Çünki Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir, xalqının firavan yaşamasıdır. Dövlət başçısının bütün qərarlarında, imzaladığı fərman və sərəncamlarda dövlətin vətəndaşa hərtərəfli qayğısı aşkar şəkildə görünür. Dövlət başçımızın avqustun 25-də imzalalığı "Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında, müsahibələrində, görüşlərində dəfələrlə qeyd edib ki, bu sahədəki siyasətim birmənalıdır: "Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".

Çünki Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur. Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. İstər pandemiya şəraiti səbəbindən, istərsə də İkinci Vətən Müharibəsi dövründən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb. Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olmaqla, ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınıb. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir.

Və dövlət başçımızın imzaladığı yeni Sərəncamı bir daha bu kateqoriyadan olan insanlara diqqət və qayğısının göstəricisidir. Qeyd edək ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Belə ki, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Həmçinin, əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin davamlı qayğısının bariz nümunəsidir. Bütün deyilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası banklar tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin ediblər. Eyni zamanda, şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Həmçinin, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna əsasən, dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alan şəhid ailələrinin üzvləri təhsil haqqı ödəməkdən azad olunmasıdır. Bütün bunlarla yanaşı, qeyd edilməli məqamlardan biri Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamıdır. Sərəncama uyğun olaraq 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. O cümlədən bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim ediləcək. Onlardan artıq 470-i verilib. Ümumilikdə indiyədək şəhid ailələrinə, müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 9670 mənzil və fərdi ev verilib. Həmçinin, bütün şəhid ailəsi üzvlərinin mənzil və ya fərdi evlə, avtomobillə təmin edilməsi nəzərdə tutulub. Şəhid ailəsi üzvləri sanatoriya-kurort müalicəsi xərcləri dövlət tərəfindən ödənilir, şəhid uşaqları təhsil haqqını ödəməkdən azad olunurlar. Ailə üzvləri ilk növbədə, növbədənkənar işlə təmin olunur, yaxud özünüməşğulluğa cəlb edilir. Şəhid ailəsi üzvləri üçün vergi, əmək qanunvericiliyində və s. bir sıra güzəştlər nəzərdə tutulub. Eləcə də, qazilərimiz üçün dövlətin kifayət qədər sosial dəstəyi vardır. Həmçinin, Prezidentin "Hərbi qulluqçuların statusu haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və qanunlarda, Əmək və Vergi Məcəllələrinə dəyişikliklər etməsi Vətən müharibəsi iştirakçılarının ailələrinə müxtəlif sosial güzəştlərin tətbiqinə səbəb olub. Eyni zamanda, Vətən müharibəsi qəhrəmanları gəlir vergisindən azad olunublar. Bütün bu qərarlar bir daha Azərbaycan hökumətinin ordumuza, hərbçilərimizə davamlı olaraq öz sosial qayğısını artırmaq niyyətini göstərir.

Bütün bunlar, bir daha təsdiq edir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin sosial siyasətinin əsas tərkib hissələrindəndir.

Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".



# "Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki mövqeyi günü-gündən daha da möhkəmlənir"

## *YAP Qobustan rayon təşkilatının VIII hesabat konfransı keçirilib*



**Avqustun 26-də Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının videoformatda VIII hesabat konfransı keçirilib. Əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**







Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Qobustan rayon təşkilatının sədri Füzuli Güləliyevin hesabat məruzəsi dinlənilib. Qeyd edib ki, dahi şəxsiyyət Heydər Əliyevin dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki mövqeyi günü-gündən daha da möhkəmlənir.



Təşkilat sədri vurğulayıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 ilin işğalına son qoyuldu, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bu şanlı Qələbə Heydər Əliyev siyasətinin, ideyalarının təntənəsidir. Tarixi Zəfərimizin yaratdığı reallıqlar qarşıya mühüm vəzifələr qoyur. Yeni Azərbaycan Partiyasının hər bir üzvü bu vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsinə səy göstərir.

F.Güləliyev bildirib ki, hesabat dövründə Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatına 314 nəfər üzv qəbul olunub. Hazırda YAP Qobustan rayon təşkilatı 54 ərazi ilk partiya təşkilatını özündə birləşdirir. Rayon təşkilatı öz sıralarında 2608 üzvü birləşdirir ki, onlardan 1100 nəfəri gənclər, 762 nəfəri isə qadınlardır. Sonra YAP Qobustan rayon təşkilatının Nəzarət Təftiş Qrupunun üzvü Ruslan Şahbazov hesabat məruzəsi ilə çıxış edib.

Müzakirələr zamanı çıxış edən YAP Qobustan rayon təşkilatının İdarə Heyətinin üzvü, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, rayon təşkilatı sədrinin müavini, Qobustan şəhər 4 saylı uşaq bağçasının müdiri Zümrüd Şərifova, rayon təşkilatının Şura üzvləri - Qobustan rayon Bölgə Təcrübə Stansiyasının direktoru Atabəy Cahangirov və Cəyirli Bələdiyyəsinin sədri Aynur Axundova hesabat dövründə görülən işlərdən bəhs ediblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, cəmiyyət həyatının istənilən sahəsində inkişafın, dinamizmin təmin edilməsi yeni yanaşmaların tətbiqini, dövrün tələblərinə uyğun islahatların həyata keçirilməsini tələb edir. Yeni Azərbaycan Partiyasının VII Qurultayına qədərki dövrün ən mühüm hadisəsi torpaqlarımızın işğaldan azad olunmasıdır. Qələbəmizin diktə etdiyi reallıqlar və onların gerçəkləşdirilməsi yeni islahatlara, təkmilləşməyə yol açır.



Partiyanın hər bir rayon təşkilatının fəaliyyətini dövrün, zamanın tələblərinə uyğun formalaşdırmalı olduqlarını önə çəkən Ə.Tağıyev YAP Qobustan rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Qobustan rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Milyonların qəlbinə işıq saçan mərhəmət və xeyirxahlıq nümunəsi - Mehriban xanım Əliyeva

Tarixi həqiqətdir ki, vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı, humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir. Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ümumxalq sevgisini və hörmətini qazanmış nüfuzlu ictimai və dövlət xadimidir. Təşəbbüskarlığı və yüksək təşkilatçılıq bacarığı ilə Azərbaycanın bir çox uğurlarına imza atan Mehriban Əliyeva Azərbaycan qadınlarının ən parlaq nümayəndəsidir. Bu gün bütövlükdə dünyanın, insanlığın bəlkə ən çox ehtiyac duyduğu məsələ xeyirxahlıq və mərhəmətdir. Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərməkdədir.

Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib. Artıq 17 ildir ki, əsasında mərhəmət, şəfqət, xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir və bu 17 il ərzində Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Fondun dəstəyilə artıq uzun illərdi ki, müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən önəmli addımlardandır. Həmçinin, Mehriban xanım Əliyevanın fəaliyyətində Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində, Azərbaycanın sivilizasiyalararası dialoqda fəal iştirakı və rolu xüsusi bir yer tutur.



Bu gün dünyamızda çətin dönəm yaşanır. Koronavirus pandemiyası hələ bəşəriyyəti təhdid edir. Şükürlər olsun ki, Azərbaycanda aparılan qabaqlayıcı tədbirlər fonunda bu gün müsbət dinamikanın şahidi oluruq. Pandemiya ilə mübarizə dövründə Mehriban xanım Əliyeva da öz missiyasına, amalına sadiqliyini bir daha nümayiş etdirdi. Ölkənin birinci xanımı iki dəfə xalqa müraciət edərək hər kəsi "gözəgörünməz düşmən"lə mübarizədə birlik, həmrəylik nümayiş etdirməyə çağırdı. Birinci vitse-prezidentin "Evdə qal, sağlam qal!" şüarlı təşəbbüsü böyük dəstək qazandı.

Həmçinin, bu gün valideyn himayəsindən məhrum uşaqların mənəvi anası, dərdli şəhid analarının, qaçqın və məcburi köçkünlərin dayağı olan Mehriban xanım Əliyeva bütün fəaliyyətini hər zaman təmənnasız olaraq insanların rifahı, xoşbəxt yaşamı uğrunda sərf edir. Bütün bunlarla yanaşı, Mehriban xanım Əliyeva ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil edir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, xalqımızın mədəni irsinin qorunmasında və təbliğində xüsusi rol oynayır. Onun təşəbbüsləri Vətən müharibəsində qazandığımız tarixi qələbənin nəticələrinin möhkəmləndirilməsi baxımından da böyük əhəmiyyət daşıyır. Bu baxımdan, işğaldan azad olunan torpaqların bərpasında humanitar missiyanın həyata keçirilməsini xüsusi vurğulamaq lazımdır. Şəhid ailələri, Azərbaycanın ərazi bütövlüyü uğrunda sağlamlığını itirmiş şəxslər daim Birinci vitse-prezidentin xüsusi diqqət mərkəzindədir, onlar lazımı dövlət qayğısı ilə əhatə olunublar.

Mehriban xanım həm qadın, həm ana, həm də yeni siyasi təfəkkür daşıyıcısı olan dövlət xadimi kimi Azərbaycan üçün nümunədir, qadınların ictimai fəallığını əks etdirən yeni modelin müəllifidir. Əlbəttə, bu, bütün Azərbaycan xalqını sevindirir, cəmiyyət layiqli dövlət adamı ilə qürur duyur.

Şübhəsiz ki, Birinci xanım kimi böyük uğurlara imza atan Mehriban xanım Əliyeva bundan sonra da respublikamızın inkişafına öz dəyərli töhfələrini verəcək.

***SEYFƏDDİN ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***



## "Rusiyanın davranışlarında da ciddi dəyişikliklər var"

**"Ermənistanın sərhəddə bu cür təxribatlara əl ataraq gərginlik yaratmasında məqsəd həm sülh müqaviləsindən qaçmaq, həm də sərhədlərin delimitasiyası ilə bağlı məsələləri həll etmək və Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliklərindən qaçmaqdır. Bir sözlə, Ermənistan 10 noyabr razılaşmalarını həyata keçirməmək üçün bu üsuldan istifadə edir". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli bildirib.**

Onun sözlərinə görə, Ermənistan bütün bu təxribatları törədir ki, Azərbaycana psixoloji təzyiq göstərsin və digər tərəfdən böyük sülh müqaviləsinin imzalanması üçün açıq-aşkar ciddi problemlər yaradır: "Rusiya da 10 noyabr sazişinin vasitəçi tərəfi kimi öz funksiyalarını yerinə yetirmir. Son vaxtlar Rusiyanın davranışlarında da ciddi dəyişikliklər əmələ gəlir, yeni Ermənistanı silahlandırır və ölkədə yenidən sürətlə silahlanmaya rəvac verir. Bu, kimə lazımdır? İki dövlət arasında sülh yaratmaq əvəzinə, əksinə, Ermənistanı birtərəfli qaydada silahlandırır".

Xatırladaq ki, avqustun 25-də saat 15:45 radələrində Gorus-Qafan yolunun Qubadlı rayonunun Aşağı Cibikli kəndi yaxınlığından keçən hissəsi istiqamətində yerləşən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının sərhəd-döyüş məntəqəsinin ərazisində xidmətdə olan əsgər Şirəliyev Ruslan Nəriman oğlu Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusunun qəfil hücumuna məruz qalıb, əlbəyaxa döyüş zamanı sinə nahiyəsindən süngü bıçaqla xəsarət alıb.

DSX-nin yaydığı məlumata görə, digər sərhəd naryadlarının köməyə gəldiyini görən Ermənistan hərbçiləri ərazinin sıx meşəlik olmasından istifadə edərək geri qaçıblar.

"Əsgər R.Şirəliyev təcili olaraq Dövlət Sərhəd Xidmətinin hərbi hospitalına təxliyə edilib, hazırda həyatı üçün təhlükə yoxdur. Baş vermiş hadisəyə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür və bu təxribata adekvat cavab veriləcək", - məlumatda vurğulanıb.

***Gülyana***

# Diplom həsrətli valideynlər...

## ...amma sabah həmin diplomlu övladın layiqli bir iş əldə etmə perspektivi hələ ki, şübhə altındadır

**...Bu gün daha yaxşı yaşamaq üçün hansı daha çox önəm kəsb edir: universitet diplomu, yoxsa qaynaqçı şəhadətnaməsi? Əslində, "qonşudan qalma dala" prinsipi biz azərbaycanlıların daxilimizdə hələ qədimdən kök salıb. Yadımdadır, ali təhsil uzun müddət Sovet dəyərləri sistemində də əsas prioritetlərdən biri olaraq qalırdı. Belə ki, əksər valideynlər övladlarına universitet diplomu almaq üçün, az qala hər yola gedirdilər. Təbii ki, çox vaxt burada övladın savadının olub-olmaması da elə bir önəm kəsb etmirdi. Sadəcə olaraq, qonşunun övladı ali təhsil alırsa, bəs onda mənim övladım niyə almamalıdır?**



Maraqlıdır ki, bu günlərdə rus saytlarından birində, bəlkə də bizlərdə bəzilərinə qəribə görünəcək bir yazı ilə rastlaşdım.

Bu il rusiyalı gənclərin karyera ambisiyalarında dönüş baş verdiyini bildirən yazı müəllifi onların əksəriyyətinin, əvvəllərdə olduğu kimi, universitetlərə yox, orta ixtisas təhsili müəssisələrinə üz tutduğunu bildirir. Təbii ki, bunun da əsası var.

Məsələn, mən bu yaxınlarda "HeadHunter" internet işə götürmə şirkəti səlahiyyətlisinin bir açıqlaması ilə rastlaşmışdım. Həmin açıqlamasında şirkət səlahiyyətlisi bu gün Rusiyada təcrübəsi olmayan "proqramistlərdən" daha çox tornaçılara, çilingərlərə və "santexnik"lərə tələbat olduğunu bildirirdi.

Məncə, bu gün həyatda uğur, müvəffəqiyyət qazanmaq təkcə ali məktəb diplomuna sahib olmaqla bitmir. Mən bununla bağlı xeyli nümunə də göstərə bilərəm. Məsələn, amerikalı ixtiraçı və sahibkar Tomas Edison və ya dünyanın ən varlı adamı, eyni zamanda ictimai xadim kimi tanınan Bill Qeyts universitet-filan bitirməyiblər. Amma bu gün onlar Amerika iyerarxiyasının ən yüksək pillələrinə qalxıblar. Yəni dünyanın tanınan şəxsləri olublar. Nəyin hesabına, təbii ki, ilk olaraq bağarıq, qabiliyyət və s. hesabına...





...Gəlin etiraf edək ki, bu gün əksər dünya ölkələrində "makroiqtisadi qələbələr" haqqında qalibiyyətli xəbərlərə baxmayaraq, insanların gəlirləri ildən-ilə azalmaqdadır. Əslində bəzi istinadlar olsa da etiraf etməliyik: yaşamaq çətinləşir. Amma buna baxmayaraq, bizlərdə hələ də övladına ali məktəb diplomu almaq istəyəb valideynlərin əvvəlki istəyi hələ də səngimir. Onu da nəzərə alaq ki, ali təhsil ailə büdcəsinə ağır bir yük olmaqdan əlavə, sabah həmin diplomlu övladın layiqli bir iş əldə etmə perspektivi də hələ ki, şübhə altındadır.

...Gərək ki, Leninin fikridir, deyir ki, ali məktəb öyrətmir, sadəcə olaraq, öyrənməyin yolunu göstərir, yəni həyatda hər şeyə istehsalatda işləyib öyrənməklə nail olmaq olar.

***Ağasəf Babayev***

# Əli Kərimli şeytandan qabaq...

**Bu günlərdə jurnalist Eynulla Fətullayevin sosial şəbəkədə AXCP sədri Əli Kərimli ilə bağlı yazısını oxuyarkən dedikləri ilə tam şərik olduğumu bildirdim. E.Fəttullayev yazır ki, "siyasətçi ikiüzlü tərzdə yalan danışa bilərmi?! Yalan danışmalı, ya danışmamalı - budur bütün məsələ. Dünyamız qədər əbədi olan bu dilemma mənəviyyatçılarla makiavelliçiləri az qala keçilməz barrikadalar kimi ayırıb.**



## Yaxud da əxlaqsız "liderin" mənəviyyatsızlığı bütün həyatı boyu

Lakin biz hamımız, demək olar ki, siyasətdə makiavelliçilərin çoxluğu ilə barışmışıq, teatr səhnəsindəki bütün aktyorları ya şir, ya da tülkü kimi qəbul edirik. Azərbaycanın siyasi səhnəsində məğrur və əyilməz şirlərdən daha çox kürən və hiyləgər tülkülər var-gəl edir. Makiavelliyə görə, nağıllarda və elə təbiətdə olduğu kimi, tülkü siyasətçi kişiliyi və şərəfi deyil, qəddar yalanı simvolizə edir".

Bəli, bu gün satqın Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli və bu kimi ikiüzlü kürən, hiyləgər, şərəfsiz, əxlaqsız, mənəviyyatsız makiavelliçiləri var. Və özlərini "lider" sayan bu satqınlar, hətta "görkəmli, tarixi şəxsiyyətlərə" bənzədirlər. Ən çox da üz-gözündə əxlaqsızlıq cizgiləri aydın şəkildə görünən mənəviyyatsız Əli Kərimli bu iddia ilə çıxış edir. Bəli, Kərimli özünün layiq olmadığı uğurlarına və siyasi həyatına görə borclu olduğu "liderinin" üstündən qalın xətt çəkib. Elçibəy "Azadlıq" qəzetinin adi xüsusi müxbirindən Azərbaycanın dövlət katibini, sonradan isə öz müavinini hördü. Eks-prezidentin Kələkiyə sürgünü dövründə isə Kərimli nəinki rəhbəri "dəfn edib" partiyanın sükanını ələ keçirdi, həm də onu uğurla hakimiyyətə satdı. Kərimlinin özü bu barədə "Azadlıq" radiosuna danışarkən bildirmişdi ki, bütün həyatım boyunca mən hakimiyyətdən heç kimlə əməkdaşlıq etməmişəm, spekulyasiya ilə məşğul olmamışam. Növbəti zəhərli ilanın yalanı baş verənləri təhrif etməsidir: "Mən Taleh Kərimlini heç yaxından tanımırdım, (Nardaran hadisələrinin təşkilatçısı olan ekstremist şiə lider - R.H.) Nardarandakı hadisələri isə hakimiyyət özü təşkil etmişdi. Bizi isə onlarla ələqələndirdilər". "Uzaq sahillərdə" filmində olduğu kimi: şeytandır, iblisdir, hər nədir... axır ki, Əli Kərimli zəhərli ilandır. Bax, buna ancaq heyrət etmək olar! Bu cür ağ yalanı necə danışmaq olar?! Əli Kərimli kimi əxlaqsız məxluqlar danışa bilər. Bəyəm Əli Kərimli və AXCP Taleh Bağırzadənin başçılıq etdiyi ekstremistlərin müdafiəsinə qalxmamışdı?! Bəyəm sosial şəbəkələrdə dünyəvi siyasətçi üçün qəribə görünən dini şüarlarla çıxış edən Kərimlinin müavini Fuad Qəhrəmanlı deyildi?! Bəyəm Kərimli özü mitinqlərdə Hacı Talehi və Nardaran hadisələrinin bütün iştirakçılarını azad etməyə çağırmırdı?! Nardarandakı barrikadaları müqavimət hərəkatının Kəbəsi və hər bir narazının Məkkəsi elan edən, radikal şiə qardaşlığı ilə israrla ittifaq quran Kərimli özü deyildi?! İndi isə həyasızcasına teokratik Nardaran hərəkatının fəalları ilə heç tanış da olmadığını deyir. Həyasızlığın o biri üzü... fah...

Bu yerdə Marksizmin klassikinin siyasətlə bağlı fikrini xatırlatmaq istərdim: "Siyasətdə məlum hədəf naminə hətta şeytanın özü ilə də ittifaq bağlamaq olar-amma əmin olmaq lazımdır ki, sən şeytanı aldada biləcəksən, şeytan səni yox".

Bax, AXCP "lideri" Əli Kərimli elə şeytanın özüdür və 30 il boyu bu şeytan ancaq özünü aldatmağa çalışıb. Özündən başqa o öz yalanlarına heç kimi inandıra bilməyib. Nə hakimiyyəti, nə müxalifəti, nə xalqı...

### Əli Kərimlinin "Mat Tereza"sı- Sevinc Osmanqızı...

Bax, bunu tanımasına şübhə də etmirəm. Çünki Əli Kərimlinin primadonnaları olduğu kimi, "Mat Tereza"ları da çox olub. Xədicəsi, sonra Gültəkini və... daha kimlər, onun ardınca isə gəldi Sevinc Osmanqızı "Mat Tereza"sı hesab olundu. Və S.Osmanqızı özünü "Mat Tereza" kimi təsdiqləmək üçün, başladı Əli Kərimli sayağı satqınlıq etməyə, daha doğrusu satılmağa. Satılmağın da bir məqsədi qrantlar, evlər, villalar əldə etmək. Azərbaycanın üzləşdiyi ən ciddi problemlərindən də elə biri belə mənəviyyatsız, əxlaqsız müxalifətdir. Nə qədər paradoksal olsa da, onlar bilmir ki, ölkə hakimiyyəti normal, adekvat, ciddi və hadisələrə dərhal normal reaksiya verən müxalifətdə maraqlıdır. Belə müxalifət hakimiyyəti sərt tənqid etməli, iqtidar mənsublarını diskussiyalara və debatlara çağırmalı, problemlərin həll yollarını təklif etməli, hakimiyyət təklifləri qəbul etməyəndə isə xalqı etiraz aksiyalarına səsləyərək iqtidara təzyiq göstərməlidir. Parlament də, hökumət də, hakimiyyət də, zaman da dəyişib, artıq Azərbaycan bütün sahələrdə qalib ölkə kimi diktə edən ölkəyə çevrilib, amma Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı... kimi satqın viruslar dəyişməyib. Amma... sevinclər, xədicələr, gültəkinlər, leylalar və kimlər, kimlər... çirkaba bulaşmışlar anlamalıdırlar ki, Azərbaycan dövləti nə daxildən və xaricdən qaynaqlanan çoxsaylı çağırışlarla qarşılaşsa da, bir dəfə də geri çəkilməyib. Bu satqın parazitlər anlamalıdırlar ki, xaricdən maliyyələşdiklərini, Azərbaycandan kənarda olanların göstəriş və əmrləri ilə davrandıqlarını var qüvvələri ilə təkzib etsələr də, yalan cidasını "YouTube" ilə "Facebook"-dakı ikiüzlü çıxışların çuvalında gizlətmək mümkün deyil. Və bunu AXCP sədri Əli Kərimli çox gec olsa da, anlamalı, ya da anlamağa çalışmalıdır.

Və bu gün ona görə sizin kimi satqınlara cavab vermək istədim ki, iyrənc hərəkətlərinizə BƏSDİRİN, YETƏR! demək üçün. Qurban Məmmədovun düşük və düşkün tribunası, Sevinc Osmanqızının ingilisdilli əyalət tribunası, Tural Sadıqlının, Orduxan Temirxanın unitaz pəncərəsi, Qənimət Zahidin rəvayət quraşdırıb nağıl danışan həpənd çərçivəsi, Vidadi İsgəndərlinin tərbiyəsizlik və...və,.. başqaları da var, hamısı da zibilliklərdə. Onları hər yerdə işlədirlər, idarə olunurlar.

Və bir daha təkrarlamaq istəyirəm: Ölkənin taleyi xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxılmayıb, buraxılmayacaq da. Bunu Əli Kərimli kimi parazitlər anlamağa məcburdurlar.

*Rəfiqə HÜSEYNOVA*



**RÖVŞƏN**
*rovsen.rasulov@mail.ru*

# Xəyanətkar damğası Paşinyana aiddir, yoxsa Qarabağ klanına?

**Artıq bir neçə gündür ki, Ermənistan parlamentində əməlli-başlı psixoloji müharibə gedir, əlavə olaraq bu müharibə əlbəyaxa döyüşlərə də səbəb olur. Əsasən, savaş hakim "Vətəndaş sazişi" fraksiyası ilə müxalifətin "Ermənistan" və "Şərəf duyuram" fraksiyaları arasında gedir - bu fraksiyalar Qarabağ klanına aiddirlər və Robert Koçaryanla Serj Sarqsyanın quldur-korrupsioner qrupları hesab edilirlər.**

Əbəs deyil ki, avqustun 24-də baş vermiş qarşıdurmadan sonra ayın 25-də də qarşıdurmalar davam edib. Bu dəfə "Vətəndaş sazişi" fraksiyasının deputatı Hayk Sarkisyan Qarabağ klanının ünvanına aşağılayıcı ifadələr işlətri, xüsusilə sabiq müdafiə naziri Seyran Ohanyanı və Robert Koçaryanı hədəfə alaraq onu sərt şəkildə tənqidlərə məruz qoydu. Bu amil isə parlamentdəki alovun üzərinə necə deyərlər, benzin tökmüş oldu.

### Nə Paşinyan, nə də onun tərəfdarları heç vaxt onlara vurulan xəyanətkar və kapitulyant damğası ilə barışmayacaqlar

Əsas ittiham isə 44 günlük müharibədə Ermənistanın kapitulyasiyaya uğramasının əsas səbəbləri kimi korrupsiya və keçmiş iqtidarların satqınçılığı göstərildi, o cümlədən deyildi ki, Paşinyan siyasi olimpə yüksələrkən, yeni hakimiyyətə gəlişi ilə Qarabağ klanının 20 illik acılarını kökündən silərək kənara atmış oldu. Qısacası, mesaj verildi ki, nə Paşinyan, nə də onun tərəfdarları heç vaxt onlara vurulan xəyanətkar və kapitulyant damğası ilə barışmayacaqlar, eləcə də bu damğalar əksinə, onlara - qarabağlı erməni klanına vurulacaq. Məhz damğavurma proseslərinin onsuz da siyasi-iqtisadi böhranlar yaşayan Ermənistanda davam etməsi amili artıq belə deməyə əsas verir ki, bu xəmir hələ çox su aparacaq, ta o zamana qədər ki, tərəflərdən biri tamamilə sıradan çıxana kimi.

### Kim-kimdən nə qopartdı-qopartdıdır...

Təbii ki, bütün bunlar Ermənistandakı siyasi hakimiyyətin zəifləməsinə gətirib-çıxaracaq, amma nəticədə Qarabağ klanına qarşı repressiyalar da artacaq. Belə ki, onlar növbədənkənar parlament seçkilərində məğlubiyyətə uğramaqla yanaşı, kürsü sayında da kifayət qədər geridə qalırlar. Üstəlik, erməni cəmiyyəti də onları qəbul etmir. Əbəs deyil ki, artıq İrəvanın siyasi-ictimai kuluarlarında belə bir söhbət gəzir ki, Qarabağ klanı artıq Qarabağı təhvil verib və hazırda İrəvandakı biznes maraqlarını müdafiə edir. O da mümkündür ki, Ermənistan parlamentində baş verən məlum proseslər əslində ölkənin mövcud vəziyyətinin aşkar göstəricisidir və eyni zamanda, siyasi savaşla yanaşı, biznes savaşlarının da start görürəcəyini ehtimal etmək olar. Yəni hazırda kim-kimdən nə qopartdı-qopartdıdır...

# "SƏS TV"dəki debat qalmaqala səbəb oldu

## *ANAP sədri Abutalıb Səmədov ADP sədri Sərdar Cəlaloğlunu məhkəməyə verir*

"SƏS TV"dəki çıxışımdan sonra Sərdar Cəlaloğlu mənə növbəti dəfə böhtan atdı və ağır təhqir etdi. Bir izləyici ona yazdı ki, guya mən bu çıxışımda "Türkiyə və Pakistan Rusiyadan qorxur"-demişəm. O da nə yaşına, nə də statusuna yaraşmayacaq şəkildə məni "Rusiyanın agenti" adlandırıb, ağır dövləti cinayətdə ittiham etdi. İddia etdi ki, mən bunu Rusiyadan aldığım pullar qarşılığında edirəm. Çox təəssüf ki, bu birinci dəfə deyil". SİA xəbər verir ki, Azərbaycan Naminə Alyans Partiyasının (ANAP) sədri Abutalıb Səmədovun sözlərini pravda.az saytı yayıb.

### "Dövlət Təhlükəsizliyi Xidmətinə müraciətlə bu məsələni araşdırmasını və tədbir görməsini tələb edəcəyəm"

ANAP sədri ADP-nin sədri Sərdar Cəlaloğlunun ittihamları ilə bağlı müvafiq orqanlara müraciət edəcəyini deyib və əlavə edib ki, ona qarşı irəli sürülən ittihamlar araşdırılmalı və tədbirlər görülməlidir. SİTAT: "Sərdar Cəlaloğlu hakimiyyət orqanlarını da "Rusiyanın agentləri" ilə dolu olmaqda suçladı və onların davranışını "Rusiyadan qorxmaları" ilə əlaqələndirdi. Bu vaxta kimi onun dediklərinə səbr göstərməyimə baxmayaraq, qarşı tərəfin bunu başa düşməməsini və məsuliyyətsiz bəyanatlar verməkdə davam etməsini nəzərə alaraq Dövlət Təhlükəsizliyi Xidmətinə müraciətlə bu məsələni araşdırmasını və tədbir görməsini tələb edəcəyəm".



### "Məhkəmə və prokurorluq orqanlarına da müraciət edib təzminat tələb edəcəyəm"

Abutalıb Səmədov həmçinin qeyd edib ki, Sərdar Cəlaloğlunun ona qarşı ittihamları bu çərçivədə də başa çatmır və ADP sədri partiyası tərəfindən idarə etdiyi kanalı, həmçinin özü tərəfindən də təzminat ödəməli olacaq.

"Eyni zamanda, məhkəməyə və prokurorluq orqanlarına müraciət edib, ünvanıma söylənilən böhtan və təhqirlərə görə onun cinayət məsuliyyətinə cəlb olunmasını, özünün və telekanalının təzminat ödəməsini tələb edəcəyəm", ANAP sədri ADP sədrinin ittihamlarına cavab olaraq bildirib.

Xatırladaq ki, hər iki siyasi partiya rəhbərləri arasında uzun müddətdir ki, qarşılıqlı ittihamlar səngimir və Sərdar Cəlaloğlu Abutalıb Səmədovu dəfələrlə Rusiyanın agenti adlandıraraq bunu siyasi polemika və debatlarda Rusiyanın mövqeyinə dəstək verməsi ilə əlaqələndirib. ANAP sədri isə ADP sədrinin ittihamlarını rədd edir.

*Rövşən RƏSULOV*

# Gəncə rus icması: Bu şəhər həmişə tolerantlığı və müdrikliyi ilə məşhur olub!

*İrina Kalaşnikova:* ***“Tanrıya dua edirdik ki, oğlumuz vətəni qoruyan digər oğullarla birlikdə sağ-salamat qayıtsın. Xoşbəxtlikdən, qələbə ilə qayıtdı”***

*Tatyana Orlinskaya:* ***“Bir çox millətlərin nümayəndələri Gəncədə sülh və harmoniya şəraitində yaşayırlar. Bura bizim vətənimiz, doğmamızdır”***

*İrina Lazareva:* ***“Anam mənə atamın hər zaman Azərbaycanı öz vətəni hesab etdiyini və onun üçün canını verməyə hazır olduğunu söyləyirdi”***

Azərbaycanın 2-ci böyük şəhəri Gəncədə bir çox millətlərin nümayəndələri yaşayır. Onların arasında Gəncəni öz evi hesab edən və həyatını sevimli şəhəri olmadan təsəvvür edə bilməyən ruslar da var. Respublikanın ən böyük rus icmalarından biri burada yerləşir. “Moskva-Bakı” portalı bu şəhərdəki həyatlarından danışan və niyə doğma Gəncədən heç vaxt ayrılmayacaqlarını izah edən Gəncə rusları ilə görüşüb. Reportajı oxucularımıza təqdim edirik.

Gəncə və Azərbaycanın Qərb bölgəsi rus icmasının sədr müavini, “Novosti Qəndji” (Gəncə Xəbərləri) qəzetinin baş redaktoru İrina Kalaşnikovanın sözlərinə görə, bu gün onların icmasında təxminən 15 min adam var.



“Böyük bir ərazini əhatə edir- Azərbaycanın qərb hissəsindən- Yevlaxdan Gürcüstanla sərhədə qədər. Rus icması bütün Azərbaycan üçün çətin bir zamanda- keçən əsrin 90 -cı illərinin əvvəllərində, SSRİ-nin dağılmasından sonra ölkədə xaos və qeyri-sabitliyin hökm sürdüyü bir dövrdə formalaşdı. Ümumi çaxnaşmaya qapılan bəzi ruslar Gəncəni tərk etdilər. Ancaq rus millətindən olan Gəncə sakin-



lərinin əksəriyyəti doğma şəhərlərində qaldılar. Və verdikləri qərardan peşman deyildilər- İrina Kalaşnikova deyir.

Eyni zamanda Bakıda, ümummilli lider Heydər Əliyevin dəstəyi sayəsində Azərbaycanın rus icması təşkil edildi və bir az sonra respublikanın digər şəhərlərində regional şöbələr meydana çıxdı. “Əsasən, bunlar ötən əsrin əvvəllərində əcdadları Rusiyadan iş axtararaq Azərbaycana köçmüş və burada daimi məskən salmış ruslardır. Sovet dövründə də Gəncədə məskunlaşanlar var və hələ də bu şəhərdə yaşayırlar”, - müsahibimiz vurğulayır.

İrina Kalaşnikovanın özü əslən Yakutiyadandır, İrkutsk Dövlət Universitetində oxuyarkən gələcək həyat yoldaşı Valeh Hüseynovla tanış olub. Onların Vladimir adlı bir oğlu dünyaya gəlib. Tezliklə ailə o vaxtkı Kirovabad (indiki Gəncə) şəhərinə köçüb.

“Həyat yoldaşımın vətənini dərhal bəyəndim. Yaşıllıqlar, qırmızı kərpic evlər və tələsməyən şəhər həyatı ilə bəzədilmiş rahat küçələr. Və ən əsası- inanılmaz qonaqpərvər və xeyirxah insanlar! İkinci oğlumuz Elçin Gəncədə anadan olub”,- İrina Kalaşnikova deyir.

Böyük oğlu Vladimir hərbçi idi. Bir neçə il əvvəl hərbi xidmətdə olarkən faciəli şəkildə həlak olub. Kiçik oğlu Elçin ehtiyatda olan zabit olmaqla 44 günlük Qarabağ müharibəsi zamanı səfərbər olub.

“Hər gün həyat yoldaşımla birlikdə Ulu Tanrıya dua edirdik ki, Elçin Vətəni qoruyan digər Azərbaycan oğulları ilə birlikdə sağ-salamat evlərinə qayıtsın. Xoşbəxtlikdən, qələbə ilə qayıtdı”- deyə İrina Vladimirovna gülümsəyir.

Qadın Gəncəni öz vətəni hesab etdiyini və bu şəhərdən heç vaxt ayrılmayacağını deyir.

“Tale məni Gəncəyə möhkəm bağladı. Burada ailəm, qohumlarım və dostlarım yaşayır. Və bu şəhərdə oğlum Vladimirin məzarı var “,- gəncəli xanım deyir.

Yeri gəlmişkən, İrina Kalaşnikova Azərbaycanda rus dilində nəşr olunan ən qədim qəzetlərdən birinin redaktorudur. 2022-ci ildə “Novosti Qəndji” 100 illik yubileyini qeyd edəcək.

İrina xanımın iş yoldaşı Tatyana Orlinskaya Gəncədə anadan olub. Həyatını bu şəhərsiz təsəvvür edə bilməyəcəyini söyləyir: “Mənim ata-babalarım qonşu Gürcüstanda yaşayırdılar, Böyük Vətən Müharibəsindən əvvəl Gəncəyə köçdülər. Nənəm Nina Orlinskaya, səhnədə Solmaz Orlinskaya təxəllüsü ilə çıxış edən Azərbaycan SSR Xalq artistidir. Atam Lev Orlinskiy şəhər məktəblərindən birində əməyin əsaslarını öyrədirdi. Anam Penza regionundan Gəncəyə köçüb. Onun bibisi bir azərbaycanlı ilə evlənib, bir dəfə anamı məni onlara qonaq göndəriblər və



bundan sonra Gəncədə qalmaq qərarına gəlib. Xalça fabrikində işə düzəlib. O vaxt Gəncə gənclərinin işdən sonra Mədəniyyət evlərində rəqs gecələri təşkil olunurdu. Bu axşamların birində valideynlərim tanış olub və bir il sonra evləniblər”- Tatyana Orlinskaya deyir.

Gəncənin rahat küçələrində valideynləri ilə necə gəzdiyini və qonşuları ilə birlikdə Rusiya və Azərbaycan bayramlarını necə qeyd etdiyini tez-tez xatırlayır.

“Və bu ənənəni bu gün də qoruyuruq- Novruz və Milad bayramlarını birlikdə qeyd edirik. Gəncə həmişə tolerantlığı və müdrikliyi ilə məşhur olmuşdur. Bir çox millətlərin nümayəndələri burada sülh və harmoniya şəraitində yaşayıblar və yaşayırlar. Gəncə doğma yurdumuzdur və həyatımı bu şəhərsiz təsəvvür edə bilmirəm. Harada olursam ol, həmişə Gəncəyə çəkilirəm”- Tatyana deyir.

İrina Lazarevanın 29 yaşı var. İki sevimli oğlan yetişdirir- İlya və Leon. İrina özünü əsl gəncəli hesab edir. Anası Gəncədə, atası Şəmkirdə anadan olub. 60-cı illərin ortalarında atasının valideynləri böyük Nizaminin vətəninə köçüblər. Birinci Qarabağ müharibəsi başlayanda Georgi Lazarev könüllü olaraq cəbhəyə yollanıb. 1993 -cü ilin dekabr ayının sonunda Ağdərə uğrunda gedən döyüşdə şəhid olub. İrina o vaxt 1 yaşında idi.

“Atam başqa cür edə bilməzdi. Anam mənə atamın hər zaman Azərbaycanı vətəni hesab etdiyini



və bunun üçün canını verməyə hazır olduğunu söyləyirdi. On illər sonra atamın hisslərini başa düşürəm və bölüşürəm. Gəncə mənim üçün dünyanın ən yaxşı şəhəridir! Burada qohumlarım, dostlarım yaşayır. Oğullarım burada böyüyür və ailəmin gələcəyini bu şəhərlə bağlayıram”- xanım Lazareva vurğulayır.

***Reportaj - Samirə Kazımova***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Nikolu yıxmaq üçün kifayət qədər səbəb də var...

**“...Nikolun Azərbaycana etdiyi “anlaşılmaz ərazi güzəştləri” 9 noyabr müqaviləsində nəzərdə tutulmayan güzəştlərdir. Azərbaycanlılar da bundan “geninə-boluna” yararlanırlar. Onlar hətta dünən gecə yarısına yaxın bir neçə erməni maşınını saxlayaraq yolun Goris-Qapan hissəsini bağlamışdılar. Rusiya və Ermənistan sərhədçiləri ilə danışıqlardan sonra bəzi avtomobillərin keçməsinə icazə verilsə də, yol yalnız səhər açılıb. Əslində, bütün bunlar azərbaycanlılar tərəfindən təxribatların davamlı olacağından xəbər verir”.**

Deməli, yuxarıda deyilənlər erməni parlamentində təmsil olunan erməni müxalifəti nümayəndələrinin fikirləridir. Onlar deyirlər ki, Azərbaycan tərəfi “haqsızlıq edib”, yolu bağlayıb, ermənilər yolsuz qalıb və s. Amma onlar, yolun hansı səbəbdən qapadıldığını demirlər. Təbii ki, niyə qapadıldığını çox yaxşı bilirlər, sadəcə olaraq, bu, onlara sərf eləmir deyə, ona görə də demirlər.



“Bakının təxribatlarının yaratdığı növbəti böhran şəraitində fikir ayrılıqlarına baxmayaraq, hakimiyyət ətrafında birləşmək lazımdır”. Bunu da erməni parlamentində təmsil olunan erməni müxalifətçiləri deyirlər. Əslində, bunun səmimiyyəti elə də bir şübhə yaratmamalıdır. Çünki bizim hər birimiz ermənilərin kim olduqlarını unutmamalıyıq. Buna baxmayaraq, yenə də onların düşüncəsinə görə, özünü yalançı vətənpərvər kimi təqdim edən Paşinyan hökuməti ilə heç bir əməkdaşlıq olmamalıdır. Çünki bu hökumət ilk olaraq özünün ölkədə yaratdığı böhranı həll etməlidir.

Müxalifətin başlıca vəzifəsinin hökumətin istefasını istəmək olduğunu deyən müxalifətçi deputatlar bunun üçün küçə hərəkətlərinə ehtiyac olacağı təqdirdə, ona da gedəcəklərini deyirlər.

Onların düşüncəsinə görə, buna kifayət qədər səbəb də var. Məsələn, parlamentdəki hakim partiyanı təmsil edənlərin xuliqanlıq davranışları...

Bundan əlavə, üç müxalifətçi millət vəkili deputat toxunulmazlığı prinsipini aşaraq həbsdədir; siyasi repressiyalar var; hökumət, vətəndaşlarının respublika ərazisi boyunca təhlükəsiz və maneəsiz hərəkətini təmin edə bilmir. Daha nələr, nələr...

Yaxşı, bütün bunlar 20 iyun seçkilərindən sonra, Paşinyan hökumətinin istefasını tələb etmək üçün kifayət deyilmi? Hələ, desən bir qədər də çoxur. Belə başa düşülür ki,..onda iş başına...

Yeri gəlmişkən bildirək ki, bu gün Ermənistan Milli Assambleyasının müxalifətçi - millətçi “Hayastan” və “Mənim şərəfim var” qrupları Nikol Paşinyan hökumətinin 5 illik dövlət proqramına səsvermədə iştirakdan imtina ediblər. Belə ki, onlar müxalifətçi - millətçi “Hayastan” fraksiyasının rəhbəri Seyran Ohanyanın çıxışından sonra parlamentin iclas otağını tərk edərək erməni baş nazirin son çıxışını boykot ediblər.

Məhz buna cavab olaraq, Ermənistan parlamenti Paşinyanın “yeni kursunu” qəbul edib.

Qeyd edək ki, “Hayastan” və “Mənim şərəfim var” qruplarının etiraz etmələrinə baxmayaraq, Ermənistan parlamenti “yeni kurs” qəbul etdi Paşinyan hökumətinin proqramını qəbul edib. Belə ki, proqramın qəbuluna “Vətəndaş müqaviləsi” partiyasından olan 70 deputat səs verib.

***Ağasəf Babayev***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

27 avqust


## “Bavariya” rəqibinə rəhm etmədi - 12:0

**Futbol üzrə Almaniya kubokunda 1/32 final mərhələsinin oyunları keçirilir. Qol.az xəbər verir ki, son illərin dəyişməz çempionu “Bavariya” səfərdə 5-ci liqa təmsilçisi “Bremer”lə qarşılaşıb. Münhen klubu səfərdə oynamasına baxmayaraq, rəqibinə 12 cavabsız qolla qalib gəlib və 1/8 finala yüksəlib.**



### Almaniya kuboku

**1/32 final**

“Bremer” - “Bavariya” - 0:12
Qollar: Çupo-Motinq, 8, 28, 35, 82, Musila, 16, 49, Varm, 27, Tilman, 49, Sane, 65, Quisans, 80, Sarr, 86, Tolisso, 88

## Mbappe PSJ-nin iki təklifini də rədd etdi



PSJ-nin futbolçusu Kilian Mbappe klubunun yeni müqavilə ilə bağlı göndərdiyi iki təklifi rədd edib. Bu barədə “L'Equipe” nəşri məlumat yayıb. Bildirilib ki, birinci təklif 5 illik olub. Ancaq fransalı oyunçu bunu çox uzun müddətli hesab edib. Yeni, daha az müddətli -2024-cü ilin yayında başa çatacaq müqavilə bir neçə gün əvvəl təklif edilib. Ancaq 22 yaşlı futbolçu bu təklifi də müsbət cavablandırmayıb. Xatırladaq, Mbappenin adı “Real”la hallanır.

## ŞOK: Qazlı içkilər insan orqanizmində bu dəhşətli fəsadlara yol açır!



Dünyada ən çox satılan içkilərdən biri də qazlı içkilərdir. Müasir dövrdə sərinləşdirici effekt vermək üçün içkilərdə karbon dioksiddən istifadə edilir. Belə içkilərin tərkibinə su, şəkər (saxaroza, qlükoza və fruktoza), şəkər əvəzləyiciləri, turşular (limon turşusu, alma turşusu və fosfor turşusu), meyvə şirəsi, dadlandırıcılar, rəngləndiricilər və uzun müddətli saxlamaq üçün lazımi maddələr də daxildir. Bəs gündəlik istifadə etdiyimiz qazlı içkilər sağlamlığımıza necə təsir göstərir?

Qazlı-şəkərli içkilərin zərərləri: Elmi araşdırmalar sübut edir ki, qazlı içkilərin istehlakı qidalanma və sağlamlıqla birbaşa əlaqəlidir. Bu tip içkilərin istifadəsi enerji qəbulu, həmçinin çəki artımı, obezliklə müşayiət edilir. Bəzi araşdırmalar isə həmin içkilərin qəbulu zamanı çəki artımını gündəlik qəbul edilən enerjinin miqdarı ilə əlaqələndirirlər. Digər maraqlı fakt bundan ibarətdir ki, insanlar qazlı-şəkərli içkiləri qəbul edərkən eyni kaloriyə malik qidalara nisbətən daha az enerji qəbul edirlər. Bunun səbəbi isə onunla izah olunur ki, insan orqanizmi enerjini yeməkdən və içkidən müxtəlif yolla qəbul edir. Maraqlıdır ki, insanın qazlı-şəkərli içki və ya meyvə şirəsindən aldığı enerji dəyəri bərabərdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Elmi Tədqiqat və Risklərin Qiymətləndirilməsi Departamenti, Biomühəndislik Araşdırmaları Şöbəsinin əməkdaşı Abdul Etibaroğlunun hazırladığı məqalədə bəhs olunur.

Qazlı içki istehlakı artıq çəki ilə müşahidə olunduğu kimi, bu içkilərdən imtina çəki kontrolunun nizamlanmasına gətirib çıxarır. Bundan başqa, qazlı içki qəbulunun diabetlə də əlaqəsi var. Gündəlik olaraq 1-2 qab (250 ml) şəkərli içki qəbul edənlərin 2-ci növ diabetdən əziyyət çəkmə ehtimalları 26 faiz daha çoxdur. Lakin həmin içkilərin gündəlik istehlakını su, çay və ya qəhvə ilə əvəzləmək diabet riskini 2-10 faiz azaldır.

Qazlı içkilərin qan-damar və sümüklə əlaqəli problemlərə səbəb olduğu da məlumdur. Davamlı olaraq qazlı-şəkərli içki qəbul edənlərin, bu tip içkiləri nadir hallarda qəbul edənlərə nisbətən ürək problemləri ilə üzləşmə ehtimalı 20 faiz daha çoxdur. Bundan başqa, eyni içkilərin tərkibində fosfat miqdarının çox olduğu və fosfatın kalsiumdan daha çox qəbulunun sümüklər üçün ziyanlı olduğu məlumdur. Həmin içkilərdə adətən kalsium kimi qidalandırıcı maddələrə rast gəlinmir. Kalsiumun sümük inkişafı üçün son dərəcə əhəmiyyətli olduğunu nəzərə alsaq, bu tip içkilərin gənclər tərəfindən istehlakının təşviq edilməsi yolverilməzdir, çünki orqanizmdə fosfat kalsium balansının pozulması həmin istehlak qrupunda sümüklə əlaqəli problemlərə səbəb olur.

Bəzi sərinləşdirici içkilərin insanların ağız boşluğu sağlamlığına və ümumi səhhətinə zərərli təsir göstərdiyi fikri irəli sürülmüşdür. Həmin içkilər çox vaxt yüksək şəkər və turşuluq tərkibinə malik olur. Hər qram şəkərdə 4 kalori olduğunu nəzərə alsaq, bu içkilərin yalnız əlavə kalori verdiyini, qida dəyəri baxımından isə faydasız olduğunu görmək olar Qazlı-şəkərli içkilərdə orqanizmə lazım olan vitamin, mineral və liflərə rast gəlinmir. Bəzi dietik sərinləşdirici qazlı içkilərə şəkər əvəzinə süni dadlandırıcılar (şəkər əvəzediciləri) qatılır. Bu maddələr piylənmə və diş çürüməsi riskini azaltsa da, onların təhlükəsizliyi hələ də mübahisə mövzusudur. Çünki həmin şəkər əvəzedicilərinin parçalanma məhsulu müxtəlif metabolik təsirlərə aparıb çıxarır. Bəzi tədqiqatlar süni şəkər alternativlərinin istehlakını piylənmə, limfoma, leykemiya, sidik kisəsi və beyin xərçəngi, xroniki yorğunluq sindromu, Parkinson, Alzheimer və autizm kimi xəstəliklərlə əlaqələndirir. Məsələn, şəkər əvəzedicilərindən aspartam və saxarinin potensial kanserogenik təsirləri araşdırılıb. Araşdırma zamanı həmin kimyəvi birləşmələrin qəbulu həm erkək, həm də dişi siçanlarda beyin şişi və sidik kisəsi xərçəngi riskini artırmışdır. Hətta saxarinin istifadəsi bir müddət Kanada və ABŞ-da qadağan edilmiş, daha sonralar isə bu kimi təsdiq edilmiş bir sıra şəkər əlavələrinin normal doza daxilində qəbulunun heç bir sağlamlıq riski daşımadığı öyrənilmişdir.

Qazlı içkilərin faydaları: Tərkibinə şəkər əlavə edilməyən karbonatlı içkilər orqanizm üçün faydalı ola bilər. Belə içkilər, dietik sodalar diabet və çəki tənzimlənməsinə kömək edir, həmçinin fruktoza tərkibli içkilərdən fərqli olaraq dişlərin sağlamlığına hər hansı təhlükə törətmir.

Qazlı içkilərin faydasını üç qrupa bölmək olar. İlk növbədə, karbohidratlarla zəngin olduğu üçün enerji mənbəyidir; ikincisi. izotonik içkilər vasitəsilə bədən duzlarının daha tez həzm olunması (qeyd. İzotonik içkilər bədənin daxili konsentrasiyasına uyğun olan içkilərdir); üçüncüsü, zz kalorili növləri bu şəkildə qidalanmaq istəyənlər üçün daha rahatdır.

## Əfsanəvi nağaraçı öldü



**“İngilis The Rolling Stones” rok qrupunun əfsanəvi təbilçisi Charlie Watts 80 yaşında vəfat edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, qrupun gələn ay ABŞ -dakı turnesinin sonuncu olacağından qorxaraq, pərəstişkarlarının biletlərə marağı artdı.**

Bəzi biletlər qara bazarda 4000 dollara qədər qalxdı. Qrupun qalan üzvlərinin bundan sonra Steve Jordan ilə birlikdə olacağı gözlənilir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**